Xalqın qəzeti!

# Xalq qəzeti

№ 29 (30433) 10 fevral 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# "Dəmir yumruq" zərbə gücünü artırır

## Prezident İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin obyektlərində olublar





**Fevralın 9-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olub və silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu izləyiblər.**

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev PUA Akademiyasında yaradılan şəraitlə tanış oldu.

Zakir Həsənov və Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar dövlətimizin başçısına Akademiyada yaradılan şərait və pilotsuz uçuş aparatları barədə məlumat verdilər. Bildirildi ki, burada hərbi qulluqçuların hazırlığı üçün hər cür şərait yaradılıb. Akademiya müasir standartlara cavab verən bütün növ zəruri texnika və avadanlıqlarla təchiz olunub.

Sonra Ali Baş Komandan hərbi obyektdə müxtəlif tipli PUA üçün uçuş-enmə zolağına gəldi. "Akıncı" hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gələn Prezident İlham Əliyev burada PUA-nın idarəolunmasını praktiki həyata keçirdi.

PUA-nın yerə enməsini izləyən Azərbaycan Prezidenti uçuş vasitəsinin üzərinə xatirə imzasını çəkdi.

(ardı 2-ci səhifədə)

# Zığ gölü çirkabdan təmizlənəcək

## Ətrafı isə abadlaşdırılaraq parka çevriləcək



**Bakı şəhərinin inzibati ərazisində ekoloji çirklənmələrin böyük hissəsi keçmiş sənaye dövründən miras qalıb. Hazırda isə yeni hazırlanan paytaxtın Baş Planı çərçivəsində neft hasilatının artması və sənayenin inkişafı nəticəsində torpaq sahələrinin çirklənməsinin aradan qaldırılması nəzərdə tutulub. Eyni zamanda, Böyükşor, Xocahəsən, Qu, Bülbülə göllərinin təmizlənməsi üzrə müəyyən layihələrin həyata keçirilməsi planlaşdırılıb.**

Bu gün sürətli urbanizasiya prosesi nəticəsində paytaxtda mütəmadi subasma, "istilik adası" effekti, havanın çirklənməsi, yaşıllıq sahələrinin azalması kimi hallar müşahidə olunur. Buna görə də Bakıda müasir ictimai nəqliyyat sisteminin inkişafı, yaşıllaşdırma tədbirlərinin gerçəkləşdirilməsi, mühəndis-kommunikasiya sistemlərinin yenidən qurulması və ətraf mühitin mühafizəsi ilə bağlı kompleks tədbirlərin əlaqələndirilmiş şəkildə icrası qarşıya önəmli vəzifə kimi qoyulur.

(ardı 7-ci səhifədə)

# Şarl Mişel "sülh cəngavəri" ola biləcəkmi?



## Avropa İttifaqı Şurası prezidentinin vasitəçilik təşəbbüsünün kölgəli məqamları

**Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyevə yenidən dövlət başçısı seçilməsi ilə bağlı təbrik zəngi xüsusunda dedikləri, o cümlədən, onun üçtərəfli formatda Brüsseldə görüşlərin bərpası ilə bağlı ölkəmizin liderindən mövqeyini bildirməsini xahiş etməsi maraq doğurur.**

Məlum olduğu kimi, Prezident İlham Əliyev Azərbaycanın Ş.Mişelin təşəbbüsü ilə Brüsseldəki üçtərəfli görüşləri dəstəklədiyini həmişə bildirib. Ölkəmizin rəhbəri yenə də eyni mövqeyi açıqladı. Bəs bu açıqlama əvvəlki formatın bərpası anlamına gəlirmi? Ş.Mişelin təşəbbüsü baş tutacaqmı? Yazımızda mövcud məqamlara toxunacaq və yekun rəyə gəlməyə çalışacağıq.

Əlbəttə, ilk maraqlı cəhət Ş.Mişelin xahişidir. Yəni, onun dövlətimizin başçısından mövqeyini bildirməsini istəməsi. İlk baxışdan, belə təəssürat var ki, Ş.Mişel üçtərəfli görüş üçün sanki inad edib. Hər halda, bu, adi məsələ sayıla bilməz. Elə, onun təbrik zənginin özü də. Haşiyə çıxaq ki, hazırda anti-Azərbaycan mövqe tutan, 7 fevral Prezident seçkiləri ilə bağlı ölkəmizi hədəfə çevirən, seçkiləri gözdən salmağa cəhd göstərən kollektiv Qərbin aparıcı liderlərindən birinin təbrik mesajı çox şey deməkdir. Ən əsası isə bu, seçkilərin nəticələrinin Avropa ictimai rəyində qəbulu anlamına gələn hadisədir.

(ardı 4-cü səhifədə)

# "Şərqin qapısı"nda Naxçıvan muxtariyyəti



Səhifə ⇨ 6

# Jurnalist Taker Karlson Qərbin siyasi elitasına qarşı

## *Və ya demokratlar azad sözdən niyə qorxurlar?*



**Dünya o zaman kor olur ki, ortada həqiqət olmur. Həqiqət isə acı olduğundan onu ifadə edən sözü məhkum edib aradan götürürlər ki, kimsə eşitməsin. Biz dünyanın Azərbaycan həqiqətlərinə kor olduğunu çox görmüşük deyə, bunu yaxşı bilirik. 20 Yanvar 1990-cı il faciəsi, dəhşətli Xocalı qətliamı, Azərbaycan torpaqlarının 30 ilə yaxın işğalına ədalətsizcəsinə göz yumulub. Torpaqlarımızı azad edib qəsbkarları qovandan sonra isə Qərb demokratiyasının başqa bir eybəcər üzü ilə qarşılaşmışıq.**

(ardı 10-cu səhifədə)

# Ermənistan Rusiyadan uzaqlaşmaqda qərarlıdır




Səhifə ⇨ 7

## Prezident İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin obyektlərində olublar

(əvvəli 1-ci səhifədə)

Daha sonra Prezident İlham Əliyev anqar komplekslərinə baxış keçirdi.

Anqarlar müxtəlif tipli pilotsuz uçuş aparatları, eləcə də silahlanmaya yeni qəbul edilən “Akıncı” hücum PUA-sı və digər aviasiya-texniki vasitələrin saxlanılması üçün nəzərdə tutulub.

Müzəffər Ali Baş Komandan burada “Akıncı” hücum PUA-sı və aviabombaları ilə də tanış oldu.

Sonra birgə foto çəkdirildi.






# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırmaq və fürsətdən istifadə edib yeni səlahiyyət müddətinizdə müvəffəqiyyətlər arzu etmək istərdim.

Daha təhlükəsiz və firavan ATƏT regionu naminə birgə fəaliyyətimizi davam etdirməyi səbirsizliklə gözləyirəm. Bu baxımdan, qarşıdan gələn Münxen Təhlükəsizlik Konfransı zamanı Sizi yenidən görmək və təbriklərimi şəxsən çatdırmaq fürsətinə malik olacağıma ümid edirəm.

Azərbaycan və ATƏT arasında mövcud olan uzunmüddətli əməkdaşlığın qarşıdakı aylar ərzində inkişaf etməkdə və möhkəmlənməkdə davam edəcəyinə inanıram.

**Zati-aliləri, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.**

***Helqa Maria ŞMİD,***
***ATƏT-in Baş katibi***

***

**Zati-aliləri cənab Prezident.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Azərbaycan Respublikası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında mövcud olan möhkəm əlaqələri qeyd etməkdən məmnunam. Sizi əmin etmək istəyirəm ki, bu əlaqələri qarşılıqlı faydamız naminə genişləndirməkdə qətiyyətliyəm.

Mən qadir Allaha dua edirəm ki, qüdrətli ölkənizin inkişafı üçün göstərdiyiniz nəcib səylərinizdə Zati-alinizə uğurlar bəxş etsin!

Cənab Prezident, xahiş edirəm Sizə ən yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Hissein Brahim TAHA,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

***

**Hörmətli cənab Prezident.**

Xahiş edirəm, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Bu, Prezident olaraq Sizin ötən illər ərzində Azərbaycan xalqı və dövləti üçün göstərdiyiniz xidmətdə qazandığınız uğurun sübutudur. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan bundan sonra da hərtərəfli inkişaf etməkdə davam edəcəkdir.

Bu fürsətdən istifadə edərək fəal və konstruktiv ikitərəfli dialoqdan məmnunluğumu ifadə edir, həmçinin ölkələrimiz arasında uğurlu strateji tərəfdaşlığın gələcəkdə daha da inkişaf edərək dərinləşəcəyinə əminliyimi bildirirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və Azərbaycan Respublikasını daha da inkişaf etdirmək, dost Azərbaycan xalqının rifahını yüksəltmək naminə ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər arzu edirəm!

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm!

**Hörmətlə,**

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə qələbəniz Azərbaycan xalqı tərəfindən Sizin fədakar əməyinizə və dövlət suverenliyinin möhkəmləndirilməsi, əhalinin rifah halının yüksəldilməsi, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqil və açıq xarici siyasətin davam etdirilməsi üzrə Sizin səylərinizə hörmətin və dəstəyin bariz nümunəsi oldu.

Hazırda strateji xarakter daşıyan Qırğızıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına Sizin şəxsi töhfənizi bizim ölkəmizdə yüksək qiymətləndirirlər.

Ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın dərinləşməsi üzrə birgə səylərimizi davam etdirməyə hazır olduğumuzu bir daha təsdiqləyirəm.

Sizə möhkəm cansağlığı, qardaş Azərbaycanın rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram!

**Hörmətlə və ən xoş diləklərlə,**

**Sadır JAPAROV,**
**Qırğız Respublikasının Prezidenti**

***

**Hörmətli cənab Prezident.**

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Sizə və Azərbaycan xalqına sülh, firavanlıq arzulayıram.

Ümidvaram ki, Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud olan, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan ənənəvi dostluq münasibətləri bundan sonra da ölkələrimizin əməkdaşlığının inkişafı üçün əsas təşkil edəcək.

Dövlətlərimiz arasında siyasi dialoqun konstruktiv xarakterini vurğulamaq və ölkəmin ikitərəfli münasibətlərin dərinləşməsinə açıq olduğunu təsdiqləmək istərdim. Əminəm ki, biz birgə səylərlə ölkələrimizin vətəndaşlarının mənafeyi naminə iqtisadi-ticari, investisiya, enerji və kənd təsərrüfatı sahələrində Moldova–Azərbaycan əməkdaşlığını daha da intensivləşdirə biləcəyik.

Zati-aliləri, ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar və nailiyyətlər arzulayır, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm!

**Dərin hörmətlə,**

**Maya SANDU,**
**Moldova Respublikasının Prezidenti**

***

**Cənab Prezident, əziz dostum.**

İcazə verin, ölkənizdə keçirilən prezident seçkilərində tarixi qələbəniz və aşkar zəfəriniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırım. Bu, siyasi, iqtisadi daxil olmaqla Sizin hər bir strategiyanızın doğru olduğunu təsdiq edən parlaq qələbədir. Azərbaycan Respublikasını möhkəm addımlarla sabit və firavan gələcəyə aparmaqda xalqınızın Sizə və Sizin müdrikliyinizə inamı və etimadı vardır.

Cənab Prezident, seçicilərin bu qərarı təkcə Azərbaycan və onun xalqı üçün deyil, habelə bütün regionda və dünyada sülh uçun önəmlidir.

Biz Serb Respublikasında Azərbaycandakı seçki kampaniyasını və seçkilərin nəticələrini diqqətlə izlədik və mən birmənalı olaraq dəstəyimi və Sizin qalib gələcəyinizə dair ümidimi açıq şəkildə ifadə etdim.

Zati-aliləri, Azərbaycan Respublikasının möhtərəm Prezidenti, fürsətdən istifadə edərək Sizi növbəti yeddiillik prezidentlik müddətiniz münasibətilə bir daha təbrik edirəm!

Sizə dərin minnətdarlığımı bildirir, cansağlığı, dost Azərbaycan xalqına rifah, firavanlıq və inkişaf arzulayıram!

**Hörmətlə,**

**Milorad DODİK,**
**Bosniya və Herseqovinanın Serb Respublikasının Prezidenti**

***

**Zati-aliləri.**

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan, vətəndaşlarınız və ölkəniz üçün faydalı işlərdə uğurlar arzulamaqdan məmnunluq duyuram.

Azərbaycan xalqının Sizə göstərdiyi etimad əvvəlki dövrdə görülən müsbət və məsuliyyətli işin, ölkənizin tərəqqisinin, sabitliyinin və firavanlığının gələcəkdə də davam etməsi istəyinin təsdiqidir.

Əminəm ki, mandatınız çərçivəsində Bosniya və Herseqovina, Serb Respublikası və Azərbaycan Respublikası arasında mehriban münasibətlər bundan sonra da dostluq şəraitində inkişaf edəcək, əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın qarşılıqlı rifahı naminə daha da yaxşı və səmərəli olacaqdır.

Zati-aliləri, Sizi seçkilərdə qələbəniz münasibətilə bir daha təbrik edir, möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram!

**Hörmətlə,**

**Jelka TSVİYANOVİÇ,**
**Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü**

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Fevralın 9-da Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

İrakli Kobaxidze İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ona Azərbaycanın rifahı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirərək, öz növbəsində İrakli Kobaxidzeni Gürcüstanın Baş naziri vəzifəsinə təsdiq olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev və Baş nazir İrakli Kobaxidze dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini bildirib, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

***

**Fevralın 9-da ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd Əl-Malik Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

ICESCO-nun Baş direktoru dövlətimizin başçısına prezident seçkilərində qələbə qazanması ilə bağlı təbriklərini və xoş arzularını çatdırıb, ona Azərbaycanın tərəqqisi naminə fəaliyyətində yeni uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin İslam həmrəyliyi işinə verdiyi töhfəni bir daha yüksək qiymətləndirib.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycanla ICESCO arasında uzun illər davam edən səmərəli əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunub.

# BƏƏ Prezidentinin dostluq paylaşımı

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**

Bu barədə “Emarat Al Youm” qəzeti məlumat yayıb.

**Paylaşımda deyilir:** *“Prezident İlham Əliyevi son prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik edir, ona Azərbaycanın daha da inkişafı naminə fəaliyyətində uğurlar arzulayıram. Ölkələrimizin və xalqlarımızın maraqları naminə ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və qarşılıqlı maraqlar bazasının genişləndirilməsi məqsədilə onunla birgə işi davam etdirməyi səbirsizliklə gözləyirəm”.*

***XQ***



# Bəhreyn Kralı Azərbaycan Prezidentini təbrik edib



**Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı parlaq qələbə münasibətilə təbrik edib.**

Bu barədə Bəhreyn Xəbər Agentliyi (BNA) məlumat yayıb.

Məlumatda bildirilib ki, Kral Həməd bin İsa Al Xəlifə Prezident İlham Əliyevə Azərbaycan xalqının tərəqqi və firavanlıq arzularının reallaşması istiqamətində vəzifəsində davamlı uğurlar arzulayıb.

***XQ***

# “İlham Əliyevin liderliyinə heyranam”

**ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti Ravvin Mark Şnayer dövlətimizin başçısı İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**

**Mark Şnayerin sosial şəbəkə hesablarında bununla bağlı etdiyi paylaşımda deyilir:** *“Zati-aliləri Prezident İlham Əliyevi yenidən seçilməsi münasibətilə təbrik edirəm. Mən Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoqun, həmçinin dünyada birgəyaşayışın dayaq məkanına çevrilməsində müstəsna liderliyinə, İsrail Dövlətinə və Yəhudi xalqına göstərdiyi nümunəvi dəstəyə görə əziz dostuma heyranam”.*

***XQ***

# “Azərbaycan İlham Əliyevlə daha da irəliləyəcək”

**Albaniya Respublikasının Baş naziri Edi Rama Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**

Edi Rama “X” sosial şəbəkə hesabında bununla bağlı paylaşım edib.

**Paylaşımda deyilir:** *“Əziz dostum İlham Əliyevə dost Azərbaycanın şəksiz lideri olmasının bir daha təsdiqlənməsi münasibətilə səmimi təbriklərimi çatdırıram. Çalışqan xalqı olan Azərbaycan sevimli ölkədir və onun rəhbərliyi ilə daha da irəliləyəcək. Tezliklə Bakıda Albaniyanın yeni səfirliyinin açılışında iştirak etməyi səbirsizliklə gözləyirəm”.*

***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri, əziz dostumuz.**

Nikaraqua hökuməti və xalqı adından Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirik.

Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan dövləti və xalqı dünyada mövcud olan çağırışların dialoq və konsensus yolu ilə həllinə bundan sonra da öz töhfəsini verəcəkdir.

Bizi tarixən birləşdirən dostluğumuzu, elm, sosial, mədəniyyət, siyasət sahələrində əməkdaşlığımızı, həmrəyliyimizi möhkəmləndirməyi davam etdirməyə ümidvarıq. Sizi bir daha qələbəniz münasibətilə təbrik edir, dövlətinizə və xalqınıza səmimi arzularımızı çatdırırıq.

**Hörmətlə,**

***Daniel Orteqa SAAVEDRA,***
***Nikaraqua Respublikasının Prezidenti***
***Rosario MURİYO,***
***Nikaraqua Respublikasının vitse-prezidenti***

***

**Hörmətli cənab Prezident.**

Növbəti müddətə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə həvalə olunmuş ali vəzifənizin icrasında, ölkənizi və xalqınızı məqsəd və arzularına doğru aparmağınızda davamlı müvəffəqiyyətlər arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək ikitərəfli münasibətlərimizdən qürur duyduğumu, ölkələrimizin və xalqlarımızın rifahı naminə onu gücləndirmək və inkişaf etdirmək üçün birgə işimizi davam etdirmək niyyətində olduğumu və Fələstinin haqq işi ilə bağlı mövqeyinizə görə minnətdarlığımı bildirirəm.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, ölkənizin və xalqınızın tərəqqisi və firavanlığı üçün ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm!

**Hörmətlə,**

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti,***
***Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

***

**Zati-aliləri, əziz qardaşım.**

Sizin seçkilərdəki uğurunuz və Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz Sizə ən xoş arzularımı və ən səmimi təbriklərimi çatdırmaq üçün gözəl fürsətdir. Bu fürsətdən istifadə edərək Sizə Albaniya hökuməti adından və şəxsən öz adımdan aramızdakı yüksək səviyyəli dialoqa və iqtisadiyyatlarımız üçün, xüsusilə enerji və turizm kimi əhəmiyyətli sahələrdə əməkdaşlığa görə minnətdarlığımı bildirirəm.

Qəti şəkildə inanıram ki, Sizin yeni prezidentlik mandatınız dost ölkələrimiz arasındakı münasibətlərə yeni təkan olacaq. Həmçinin Albaniya Respublikasının tezliklə Bakıda səfirliyinin açılması aramızdakı kommunikasiyanın daha da sürətlənməsinə töhfə verəcək.

Bir daha ən xoş arzularımı çatdırıram. Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Edi RAMA,**
**Albaniya Respublikasının Baş naziri**

***

**Hörmətli İlham Heydər oğlu.**

Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu seçkilərin yekunları Sizin ölkə vətəndaşları arasında danılmaz nüfuzunuzu, onların rəhbərliyinizlə fəal çalışmağa və strateji sosial-iqtisadi vəzifələri həll etməyə hazır olduqlarını göstərdi. Vətəndaşlarınız Sizə dövlətin taleyini və öz gələcəklərini etibar ediblər. Bu, hazırkı qlobal qeyri-sabitlik şəraitində xüsusilə qiymətlidir və Sizin güclü, təcrübəli dövlət xadimi, uzaqgörən, istedadlı siyasətçi kimi möhkəm nüfuzunuzun parlaq təsdiqidir. Sizə səmimi-qəlbdən böyük nailiyyətlər və Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişafı üzrə bütün strateji məqsədlərə nail olmağı, xalqınızın rifahı naminə davamlı fəal işinizdə enerji və ruh yüksəkliyi arzulayıram.

Ümidvaram ki, bizim birgə səylərimiz sayəsində Rusiya-Azərbaycan münasibətləri çərçivəsində Tatarıstan ilə Azərbaycan arasında ənənəvi qarşılıqlı faydalı əməkdaşlığın çoxtərəfli potensialı gələcəkdə də məhsuldar şəkildə həyata keçiriləcək. Əminəm ki, qardaş xalqlarımız arasında çoxplanlı sıx əlaqələr ümumilikdə sülhün və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə olan mühüm töhfədir.

Sizə möhkəm cansağlığı, uğurlar və səadət diləyirəm.

Səmimi ehtiramla,

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi,***
***"Rusiya-İslam dünyası" Strateji Baxış Qrupunun sədri***

***

**Möhtərəm İlham Heydər oğlu.**

Bakıdan Moskvaya qayıdarkən Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə bir daha səmimi-qəlbdən təbrik etmək istədim.

MDB müşahidəçiləri missiyasının rəhbəri kimi növbəti dəfə ölkənizin vətəndaşlarının böyük əksəriyyətinin Sizə yüksək etimadının şahidi oldum.

Qəti əminəm ki, Sizin dövlət başçısı vəzifəsində fəaliyyətiniz gələcəkdə də Azərbaycan Respublikasının ardıcıl inkişafına, onun beynəlxalq arenada mövqelərinin möhkəmlənməsinə, həmçinin Müstəqil Dövlətlər Birliyi məkanında inteqrasiya proseslərinin dərinləşməsinə kömək edəcəkdir.

Fürsətdən istifadə edərək seçki kampaniyasına hazırlıq və seçkilərin keçirilməsinin bütün mərhələlərində səmərəli monitorinqi həyata keçirməyə imkan verən MDB müşahidə missiyasının fəaliyyəti üçün yaradılan əlverişli şəraitə görə minnətdarlığımı bildirirəm.

Prezident seçkilərində qələbəniz münasibətilə səmimi təbrik sözlərimə Sizə möhkəm cansağlığı, əmin-amanlıq və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləklərimi əlavə etmək istəyirəm.

**Dərin hörmətlə,**

***Sergey LEBEDEV,***
***Müstəqil Dövlətlər Birliyinin Baş katibi***

***

**Hörmətli cənab Prezident,**

Azərbaycan Respublikasında 2024-cü il fevralın 7-də yüksək səviyyədə keçirilmiş prezident seçkilərində inamlı qələbəniz münasibətilə Zati-alinizi TÜRKSOY-un Baş Katibliyi, Türk dövlətləri mədəniyyət nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı bildirməkdən məmnunluq duyuram.

Seçkilərdə Azərbaycan xalqının Sizin namizədliyinizi hərtərəfli dəstəkləməsi ölkənin ərazi bütövlüyünü tam bərpa etmiş və tarixi ədaləti bərqərar etmiş Ali Baş Komandanına və müdrik liderinə sonsuz inamının əyani təzahürüdür.

Zati-alinizin zəngin təcrübəsinin və müdrik siyasətinin yeni dönəmdə də Azərbaycanın tərəqqisinə və xalqın rifahına böyük töhfə verəcəyinə, TÜRKSOY ilə Azərbaycan Respublikası arasındakı məhsuldar əməkdaşlığın və mədəni əlaqələrin daha da genişlənərək inkişaf edəcəyinə inanıram.

Əminəm ki, beynəlxalq TÜRKSOY təşkilatının üzv ölkələrimiz arasında mədəni əlaqələrin inkişaf etdirilməsi və Türk dünyasının ayrılmaz parçası olan Azərbaycanın zəngin mədəniyyətinin dünyada tanıdılması istiqamətində apardığı fəaliyyətlər bundan sonra daha geniş vüsət alacaqdır.

TURKSOY-a diqqətini və dəstəyini əsirgəməyən Zati-alinizi bu mühüm qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə və ailənizə möhkəm cansağlığı, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram!

**Ən dərin hörmət və ehtiramla,**

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

***

**Hörmətli cənab Prezidentim.**

Fevralın 7-də keçirilən növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkilərində parlaq qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimi, qardaş Azərbaycan xalqına sülh və rifah arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycanın azad edilmiş ərazilərində ilk dəfə keçirilməsi baxımından tarixi önəm daşıyan bu seçkilər Azərbaycan xalqının dəyərlərə bağlılığını, cəsarətini və müdrikliyini bir daha nümayiş etdirdi.

Zati-alinizə nailiyyətlər arzulayır, Uca Allahdan seçkilərin nəticələrinin Azərbaycan xalqı və bütün Türk dünyası üçün xeyirli olmasını diləyirəm!

**Hörmətlə,**

***Binəli YILDIRIM,***
***Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

***

**Zati-aliləri.**

Seçkilərdə qazandığınız qələbə və yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Seçkilərin nəticələri Azərbaycan xalqının Zati-alinizin liderliyinə, eləcə də birliyi, tərəqqini və sülhü möhkəmləndirmək qətiyyətinə davamlı dəstəyini və inamını nümayiş etdirdi.

Bu fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, BMT-nin Sivilizasiyalar Alyansı (UNAOC) dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi ilə bağlı hökumətin irəli sürdüyü müxtəlif təşəbbüslərdə, o cümlədən "Bakı Prosesi"ndə Azərbaycanın uzunmüddətli tərəfdaşı olmaqda davam edir. UNAOC 2024-cü ilin mayında Bakıda keçirilməsi nəzərdə tutulan 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun beynəlxalq İşçi Qrupunun üzvüdür. Komandamız artıq proqram üzrə əsas məsləhətləşmələrə başlayıb və 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda UNAOC-u şəxsən təmsil etməyi, müzakirələrə qatılmağı və uğurlu nəticələr əldə olunmasına töhfə verməyi səbirsizliklə gözləyirəm.

UNAOC Xarici İşlər, Mədəniyyət nazirlikləri və Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəliyi ilə sıx əlaqədə işləyərək əməkdaşlığın və Azərbaycan hökuməti ilə birgə fəaliyyətin daha da möhkəmləndirilməsinə sadiq olduğunu bildirir.

Bu fürsətdən istifadə edərək Zati-alinizə ən yüksək ehtiramımı ifadə edirəm!

**Hörmətlə,**

***Migel Anxel MORATİNOS,***
***BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi***

***

**Möhtərəm cənab Prezident.**

Sizi 2024-cü il fevralın 7-də Azərbaycanda keçirilən prezident seçkilərində parlaq qələbəniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz müstəqil Azərbaycan Respublikasının tarixinə yeni səhifə yazaraq ölkəmizin bütün ərazisində keçirilən seçkilərdə ilk Prezidenti oldunuz. Torpaqlarımızın azad olunması, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpa edilməsi məhz Sizin rəhbərliyinizlə həyata keçdi və bütün bunlar Sizin adınızla bağlıdır. Sizin rəhbərliyinizlə müasir ordu quruldu, ölkəmizin iqtisadiyyatı bölgədə aparıcı iqtisadiyyata çevrildi və Azərbaycan lider dövlətlər sırasına daxil oldu.

Bu qələbəni Siz qalib Prezident kimi qazandınız. İnanıram ki, Sizin rəhbərliyinizlə Azərbaycan yeni uğurlara nail olacaq, dərin tarixi və zəngin mədəniyyəti olan ölkəmizin dünyada nüfuzu daha da artacaqdır.

Möhtərəm cənab Prezident, Sizi bir daha parlaq qələbə münasibətilə təbrik edir, möhkəm cansağlığı və ölkəmizi yüksək zirvələrə aparan yolda böyük uğurlar arzulayıram!

**Dərin hörmətlə,**

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

***

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram. Bu əlamətdar hadisə Azərbaycan xalqının Sizin liderliyinizə göstərdiyi davamlı inam və etimadı bir daha nümayiş etdirdi.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan böyük nailiyyətlər əldə edib. Uğurlu siyasətiniz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu təməllər üzərində müstəqil, suveren, müasir Azərbaycanın uğurlu inkişafına gətirib çıxarıb.

Azərbaycanın beynəlxalq əlaqələrdə həm regional, həm də qlobal səviyyədə artan rolu və nüfuzunu yüksək qiymətləndirirəm. Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi və qarşıdan gələn BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi ölkənin aktual qlobal çağırışların həllində hərtərəfli yanaşmanın tərəfdarı olduğunu nümayiş etdirir.

Bundan əlavə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə göstərdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. Zati-alinizin regionda əməkdaşlığın və dialoqun möhkəmləndirilməsinə sadiqliyi həqiqətən də təqdirəlayiqdir. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin gündəliyindəki müxtəlif məsələlər üzrə, xüsusilə də Azərbaycanın əlaqələndirici kimi fəaliyyətdə olduğu təhlükəsiz və səmərəli nəqliyyat dəhlizi sistemlərinin inkişaf etdirilməsi sahəsində əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirəm.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar və firavanlıq arzulayıram. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan inkişaf yolunu davam etdirəcək, ölkədə və regionda dayanıqlı sülhə və tərəqqiyə bundan sonra da töhfə verəcəkdir.

**Hörmətlə,**

***Kayrat SARIBAY,***
***Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi***

***

**Zati-aliləri, hörmətli cənab Prezident,**

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik etməkdən məmnunam. Seçkilərin demokratik, qanuni şəkildə keçirildiyini beynəlxalq müşahidəçilər, o cümlədən səsvermə prosesini izləyən Braziliya Federal Senatından iki həmkarım da təsdiq etdi. Sizin Azərbaycana rəhbərliyiniz dövründə ölkənin tərəqqisinin, iqtisadi və sosial inkişafının, müxtəlif sahələrdə qazanılan uğurların davamlı olacağına inanıram.

Braziliya Federal Konqresində parlamentlərarası dostluq qrupunun həmsədri olaraq ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni əməkdaşlığın, eləcə də parlamentlərarası əlaqələrin dərinləşməsi üçün səylərimi əsirgəməyəcəyəm.

Sizi bir daha təbrik edirəm, cənab Prezident!

**Hörmətlə,**

***Klaudio KAJADO,***
***Braziliya Federal Konqresinin Nümayəndələr Palatasının deputatı, Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri***

***

**Möhtərəm İlham Heydər oğlu.**

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm.

Sizin fəaliyyətiniz və səyləriniz seçicilər tərəfindən layiqincə qiymətləndirildi. Siz ölkənin və onun vətəndaşlarının rifahı, əmin-amanlığı naminə fəaliyyət göstərən əsl Lidersiniz.

Sizə möhkəm cansağlığı, bütün təşəbbüslərinizdə uğurlar arzulayıram!

**Dərin hörmətlə,**

***Viktor PİNSKİ,***
***Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Komissiya sədri, Ümumhəmkarlar İttifaqları Konfederasiyasının Baş katibi***

***

**Zati-aliləri, hörmətli cənab Prezident.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Mən Rumıniyanın Baş nazirinin strateji tərəfdaşlıqlar və xüsusi əlaqələr üzrə müavini vəzifəsində çalışarkən ölkələrimiz arasında güclü strateji tərəfdaşlığın şahidi olmuşam. Sizin liderliyiniz bu münasibətlərin daha da möhkəmlənməsində mühüm rol oynayıb və əminəm ki, əlaqələrimiz yeni dövrdə də inkişaf etməkdə davam edəcəkdir.

Seçkilərdəki qələbəniz Azərbaycan xalqının Sizin strategiya və liderliyinizə olan inam və etimadının göstəricisidir. Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi inkişaf, beynəlxalq münasibətlər sahələrində mühüm nailiyyətlər əldə etmiş, vətəndaşların firavanlığı daha da yüksəlmiş, ölkənin ərazi bütövlüyü bərpa edilmiş və dünyada nüfuzu artmışdır. Bu nailiyyətlər Sizin ölkənizin tərəqqisinə sadiqliyinizi nümayiş etdirməklə yanaşı, Rumıniya ilə Azərbaycan arasında ortaq əməkdaşlıq ruhuna mühüm töhfə verir.

Gələcəyə baxarkən mən Sizin liderliyinizlə ölkələrimiz arasındakı əməkdaşlıq imkanları barədə nikbin düşünürəm. Rumıniya-Azərbaycan strateji tərəfdaşlığı regionlarımızda sabitlik, tərəqqi və sülh üçün möhkəm zəmindir. Ortaq strateji layihələrimizi daha da inkişaf etdirmək üçün Sizinlə sıx işləməkdə davam etməyə ümidvaram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram!

**Dərin hörmətlə,**

***Ana BİRÇAL,***
***2018-2019-cu illərdə Rumıniyanın Baş nazirinin müavini və ədliyyə naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

***

**Möhtərəm cənab Prezident.**

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi adından Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirik.

Prezident seçkilərində inamlı qələbəniz vətəndaşların Sizə yüksək etimadının və Azərbaycan xalqının yekdil dəstəyinin parlaq sübutudur.

İnanırıq ki, Sizin fəaliyyətiniz gələcəkdə də əmin-amanlığa və Azərbaycanın tərəqqisinə, bütün dünyada nüfuzunun möhkəmlənməsinə kömək edəcəkdir.

Sizə - görkəmli dövlət xadiminə möhkəm cansağlığı və bu məsuliyyətli vəzifədə yeni məhsuldar fəaliyyət arzulayırıq.

**Hörmətlə,**

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibi,***

***Aydın CƏFƏROV,***
***MDB Parlamentlərarası Assambleya Şurası Baş katibinin müavini – Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi***

***

**Hörmətli cənab Prezidentim.**

Azərbaycanda keçirilən prezident seçkilərində qazandığınız böyük qələbə münasibətilə Mərmərə Qrupu Vəqfi olaraq Zati-alinizi Türkiyənin vətəndaş cəmiyyəti adından təbrik edirik.

Bu seçkilər müəllifi olduğunuz Qarabağ dastanından sonra yeni bir demokratiya dastanıdır.

Biz bu seçkilərə əhəmiyyət veririk. Çünki Azərbaycan üçün önəmli olan bu seçkilər həm də Türk dünyası üçün mühüm sabitlik, həmrəylik və birlik nümunəsi oldu.

Zati-alinizi bir daha təbrik edirik.

**Ən dərin hörmətlə,**

***Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri***

***

**Möhtərəm İlham Heydər oğlu.**

Dövlətlərarası Aviasiya Komitəsinin adından və şəxsən öz adımdan növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimizi qəbul edin.

Bu qələbə Azərbaycan xalqının Sizə, siyasi sabitlik və sosial-iqtisadi inkişaf istiqamətində həyata keçirdiyiniz kursa olan sonsuz etimadının göstəricisidir. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dünyada ən mütərəqqi dövlətlərdən birinə çevrilib.

İcazə verin, Sizə yeni-yeni uğurlar və Azərbaycan Respublikasının inkişafı naminə ali dövləti fəaliyyətinizdə daha böyük nailiyyətlər arzulayım.

**Dərin hörmətlə,**

***Oleq STORÇEVOY,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

***

**Hörmətli cənab Prezident.**

Avrasiya Uşaq Həkimləri Federasiyasının üzvləri adından və şəxsən öz adımdan növbədənkənar seçkilərdə inamlı qələbəniz və yeni müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.

Biz dost və böyük ölkə olan Azərbaycanda seçkilərin gedişini diqqətlə izləyirdik və şübhə etmirdik ki, Azərbaycanın müdrik xalqı bu taleyüklü gündə düzgün seçim edəcək. Xalq yenidən əsl vətənpərvər, dünya miqyaslı rəhbər, dahi lider, müasir Azərbaycanın banisi Heydər Əliyevin davamçısını seçdi.

Biz Azərbaycanın nailiyyətləri ilə həmişə fəxr etmişik. Zati-alinizin uğurlu liderliyi ilə atılan inamlı addımlar sayəsində torpaqlar işğaldan tamamilə azad olundu. Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, həyata keçirdiyiniz Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi, onun təkcə Türk dünyasında deyil, həm də beynəlxalq arenada mövqelərinin gücləndirilməsi kursuna ümumxalq dəstəyini tam şəkildə təsdiq etdi.

Əminəm ki, Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq əlaqələri və həmrəylik gələcəkdə də münasibətlərimizin inkişafına kömək edəcək. Qardaş Azərbaycan xalqının Sizi yenidən öz lideri seçməsi təkcə Türk dövlətləri arasında münasibətlərin inkişafı deyil, eyni zamanda, uzun illər sülhə və sabitliyə ehtiyacı olan Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin bərqərar olması baxımından da böyük nailiyyətdir.

Bu yaxınlarda Qırğızıstanda "Müzəffər Ali Baş Komandan: Əziz Şuşa, sən azadsan!" kitabının təqdimatında iştirak etdim. Bu kitabı oxuduqdan sonra bir daha Sizinlə fəxr etdim.

Qırğızıstanda Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin zəngin irsi geniş təbliğ olunur. Biz qərara gəldik ki, Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Xalqa bağışlanmış ömürdən anlar" kitabını qırğız dilinə tərcümə edək.

Bütün mütərəqqi insanlar Sizin həyata keçirdiyiniz strategiyanı və Azərbaycan dövlətinin möhkəmlənməsini dəstəkləyir. Bu düşüncələrlə arzu edirəm ki, seçkilərdə Sizin qələbəniz qardaş Azərbaycan xalqının, eyni zamanda, regionumuzun rifahına xidmət etsin.

Sizə ali dövləti vəzifənizdə yeni-yeni uğurlar diləyirəm!

**Dərin hörmətlə,**

***Kamçibek UZAKBAYEV,***
***Qırğızıstandakı Avrasiya Uşaq Həkimləri Federasiyasının prezidenti, akademik, Əməkdar həkim***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Çox hörmətli cənab Prezident.**

Bütün qaqauz xalqı adından və şəxsən öz adımdan Sizə ehtiramımı bildirirəm və ölkənizin müstəqilliyi dövründə ilk dəfə olaraq Azərbaycanın bütün ərazisində keçirilən prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqı tərəfindən Sizə göstərilən bu etimad yüksək peşəkarlığınızın və şəxsi keyfiyyətlərinizin, eləcə də ölkə əhalisi arasında qeyd-şərtsiz nüfuzunuzun təsdiqidir.

Uzun illər ərzində Siz özünüzü Azərbaycan xalqının mədəniyyətini və tarixini, milli maraqlarını qoruyub saxlayaraq, sosial-iqtisadi inkişafı təmin edərək ölkəni mütərəqqi inkişaf yolu ilə irəliyə aparan alicənab və müdrik lider kimi göstərmisiniz. Sizin səyləriniz nəticəsində bu gün Azərbaycan ən inkişaf etmiş ölkələrdən biridir və onun beynəlxalq miqyasda nüfuzu ildən-ilə artır.

Qardaş xalqlarımız arasında münasibətləri yüksək qiymətləndiririk və Qaqauziya Muxtariyyətinə diqqətinizə görə Sizə minnətdarıq. İnanırıq ki, gələcək əməkdaşlığımız müxtəlif birgə layihələrdə öz əksini tapacaq.

Çox hörmətli cənab Prezident, Sizə dərin hörmətimi bildirirəm, möhkəm can-sağlığı, tükənməz enerji və yeni uğurlar arzu edirəm. Biz Sizi Qaqauz torpağında görməyə həmişə şad olacağıq.

Sizə və bütün Azərbaycan xalqına sülh, tərəqqi və firavanlıq arzu edirəm!

**Dərin hörmət və ən xoş arzularla,**

***Yevgeniya QUTSUL,***
***Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun (Qaqauz Yeri) rəhbəri***

***

**Hörmətli cənab Prezident,**

Sizi növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Bu böyük zəfər təkcə bir seçkinin nəticəsi deyil. Bu, eyni zamanda, ölkənizin demokratiyanın inkişafında mühüm uğurlarını və xalqınızın Sizə etimadını aşkar surətdə nümayiş etdirdi. Seçkilərin nəticəsi həm də Azərbaycan xalqının Sizin liderliyiniz ətrafında sıx birləşdiyini və parlaq gələcək üçün inamla irəlilədiyini göstərdi. Bu qələbə Azərbaycanın milli birliyini gücləndirməklə yanaşı, ölkənizin beynəlxalq aləmdəki rolunu daha da artıracaqdır.

Möhtərəm cənab Prezident, Siz hər zaman ölkənizin sabitliyi və inkişafı naminə çalışaraq öz qətiyyətinizlə fərqlənmisiniz. Seçkilərdəki mühüm qələbəniz münasibətilə Sizi Dünya Axıska Türkləri Birliyi və Azərbaycanda yaşayan yüz min axıska türkü adından ən səmimi hisslərimlə təbrik edir, prezidentliyinizin yeni dövründə Sizə böyük nailiyyətlər, Azərbaycana rifah dolu gələcək arzulayıram!

**Hörmətlə,**

***Ziyəddin KASSANOV,***
***Dünya Axıska Türkləri Birliyinin baş direktoru***

## Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Prezident İlham Əliyevi təbrik edib

**Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Denis Beçiroviç Azərbaycan Prezidenti İlham Əliyevi seçkilərdə qazandığı qələbə münasibətilə təbrik edib.**

Denis Beçiroviç dövlətimizin başçısına göndərdiyi təbrik məktubunda ölkələrimiz arasında münasibətlərin uzun illərdir səmimilik və dostluq xarakteri daşıyan yaxşı əməkdaşlıqla yadda qaldığını vurğulayıb. O, əmin olduğunu qeyd edib ki, qarşılıqlı maraq doğuran bütün sahələrdə ikitərəfli münasibətlər bundan sonra da dostluq ruhunda inkişaf edəcək.

Rəyasət Heyətinin üzvü ölkələrimizin və xalqlarımızın rifahı naminə tərəfdaşlığın qorunub saxlanılmasına və genişləndirilməsinə sadiqliyini ifadə edərək Prezident İlham Əliyev ilə yeni görüşləri və əməkdaşlığımızın davamını səbirsizliklə gözlədiyini diqqətə çatdırıb.

## Litva Prezidenti dövlətimizin başçısı İlham Əliyevi seçkilərdə qazandığı qələbə münasibətilə təbrik edib

**Litva Prezidenti Gitanas Nauseda Azərbaycan Prezidenti İlham Əliyevə seçkilərdə qazandığı qələbə münasibətilə təbrik məktubu göndərib.**

Məktubda dövlətimizin başçısına yeni uğurlar, ölkəmizə davamlı rifah diləyən Prezident Gitanas Nauseda qeyd edib: “Qəti əminəm ki, Sizin prezidentliyinizin yeni dövründə də Litva ilə Azərbaycan arasında səmərəli əməkdaşlıq münasibətləri, uğurlu ikitərəfli və çoxtərəfli tərəfdaşlıq daha da inkişaf etdiriləcək”.

Prezident Gitanas Nauseda ölkələrimiz arasında əlaqələrin dərinləşdirilməsi, xüsusilə iqtisadiyyat, informasiya texnologiyaları və bərpaolunan enerji sahələrində ikitərəfli təmasların inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğunu vurğulayıb.

Prezident İlham Əliyevi seçkilərdə qazandığı qələbə münasibətilə bir daha təbrik edən Litva dövlətinin başçısı yeni mandatın regionda dayanıqlı sülhün qurulması üçün möhkəm təməl olduğunu qeyd edib.

# Şarl Mişel “sülh cəngavəri” ola biləcəkmi?



(əvvəli 1-ci səhifədə)

Digər tərəfdən, nəzərə alaq ki, Ş.Mişel Ermənistanın rəyini bildiyindən inad edib. Amma demək olmaz ki, rəsmi İrəvan Brüssel formatına sadiqdir. Çünki erməni iqtidarı, bir qayda olaraq, imitasiya yolu tutmaq, özünü pozitiv, sülhpərvər kimi göstərmək istəyir. Real əməldə isə bunun tam əksi müşahidə olunur. Məsələn, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ölkəsinin Beynəlxalq Cinayət Məhkəməsinə üzvlüyü ilə bağlı bir neçə gün əvvəl keçirilmiş mərasimdə bəyan edib ki, qurumda təmsilçilikdə məqsəd “Qarabağ ermənilərinin bölgədən zorla qovulmalarına görə” Azərbaycanı məsuliyyətə cəlb etməkdir. Hər halda, səmimi şəkildə sülh istəyən ölkənin xarici siyasət idarəsinin rəhbəri belə düşüncədə olmamalıdır...

İkinci maraqlı məqam Avropa İttifaqının sülh missiyasını davam etdirmək niyyətini ortaya qoymasıdır. Əlbəttə, Azərbaycan Cənubi Qafqazda sülhün və əmin-amanlığın yaradılması istiqamətindəki bütün təşəbbüslərə açıq olduğu kimi, Brüssel danışıqlarının davamına da sadiqdir. Ən başlıca məqam isə danışıqların hansı məzmunda davam etməsidir. Deməli, bəzi sualların aydınlaşdırılmasına ehtiyac var: birincisi, Aİ sülh missiyasında səmimidirmi? Yəni, qurum, həqiqətən də, Cənubi Qafqazda durumun normallaşmasını istəyir, yoxsa Rusiyanın vasitəçilik missiyasını gücləndirməsinə münasibətdə alternativlik ortaya qoyur? Bəlkə istəmir ki, Moskva mövcud istiqamətdə önə çıxsın?

Əslində, suallar çoxdur və heç də onların hamısının üzərində dayanmayacaq, yalnız bəzi məqamları diqqətə çatdıraraq Ş.Mişelin hazırkı təşəbbüsünün reallıqla nə dərəcədə səsləşdiyinə nəzər salacağıq. Əvvəlcə bildirək ki, Prezident İlham Əliyevlə Ş.Mişelin söhbəti zamanı Ermənistanla Azərbaycan arasında sülh danışıqları ilə bağlı fikir mübadiləsi aparılıb və bu baxımdan Azərbaycan Respublikasının Prezidenti Administrasiyası və Ermənistanın baş nazirinin aparatı arasında ötən il dekabrın 7-də ikitərəfli əsasda qəbul edilmiş birgə bəyanatın irəliyə doğru mühüm addım olduğu vurğulanıb.

Bəli, sözügedən birgə bəyanat müstəsna əhəmiyyətə malikdir. Ancaq ondan sonrakı proseslər sülh üçün dalan perspektivi yaradır. Bu baxımdan elə Ş.Mişelin öz açıqlamasının da obyektiv təsir bağışlamadığını vurğulamağa ehtiyac var. Söhbət Aİ Şurası prezidentinin ötən il dekabrın 12-də “Azadlıq” radiosuna müsahibəsində bildirdiklərindən gedir. Azərbaycan və Ermənistan arasında münasibətlərdə milli azlıqlar məsələsindən bəhs edən cənab Mişel etnik ermənilərin Azərbaycana qayıtmalarına geniş yer ayırdığı halda, Ermənistandan qovulmuş azərbaycanlılar barədə bir kəlmə də danışmamışdır.

Məsələ burasındadır ki, kollektiv Qərb Azərbaycan–Ermənistan sülh sazişində Qarabağ erməniləri ilə bağlı ayrıca müddəanın olmasını istəyir. Ş.Mişel də, əslində, mövcud məqamı qabartmışdı. O, müsahibəsində, həmçinin bildirmişdi ki, məsələni qəlizləşdirməmək üçün detallara çox varmaq istəmir. “Amma indi münasibətləri normallaşdırmaq üçün Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına ehtiyac var. Bu sülh sazişi sərhədlərin delimitasiyasına əsaslanmalıdır. Bu sülh sazişi həm də yaxşı bir çərçivə ola bilər ki, regionda nəqliyyat əlaqələri yaxşılaşsın. Bu, həmin regionda iqtisadi inkişafa müsbət təsir edərdi. Eləcə də başqa ölkələrin, məsələn Gürcüstanın. O ki qaldı, Qarabağ ermənilərinə, Avropa İttifaqı bu məsələni hərtərəfli diqqətdə saxlayır, biz bu məsələdə səylər göstəririk. Azərbaycan tərəfini inandırmağa çalışırıq ki, milli azlıqların haqlarının qorunması və beynəlxalq standartlara əməl olunması məsələsində xoş niyyətlərini açıq nümayiş etdirsinlər. Mən səmimi şəkildə inanıram ki, apardığımız bu müzakirələrin nəticəsi olaraq Avropa İttifaqı üçün prioritet olan bir məsələdə irəliləyişə nail ola bilərik”.

Görəsən, indi də Ş.Mişel eyni fikirdədir? Yəni, o, hesab edirmi ki, Qarabağ ermənilərini ayrıca imtiyazlı təbəqə kimi göstərməklə, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına nail olmaq mümkündür? Axı ölkəmiz, heç bir halda, bu məsələyə nikbin baxmır. Çünki Qarabağ ermənilərinin bölgəyə qayıtmaları xüsusunu sülh prizmasından görmək erməni avantürizminə yaşıl işıq yandırmaq deməkdir. Mövcud xüsusda Azərbaycan Prezidentinin bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində Qarabağ mövzusunun müqavilənin predmeti olmadığını vurğulamasını yada salaq: “...Çünki mən deyirdim ki, Qarabağ bizim daxili işimizdir, əgər sülh müqaviləsi imzalanarsa, bu, dövlətlər arasındakı müqavilə olacaq”.

Yeri gəlmişkən, cənab İlham Əliyev həmin müsahibədə Ermənistanla Qərb platformasında aparılan danışıqların bir müddət ümid doğurmaması üzərində də dayanmışdı. Bildirmişdi ki, Ermənistan və onun arxasında dayanan bəzi ölkələr mütləq Qarabağla bağlı mövzunu sülh müqaviləsinə salmaq istəmişdilər, xüsusilə status məsələsini. “Bir müddətdən sonra artıq hesab edirəm ki, real vəziyyət, bizim addımlarımız və mövqeyimiz, o cümlədən, statusun göndərdiyim o ünvanın göstərilməsi müəyyən dərəcədə onların mövqeyində dəyişikliyə səbəb oldu və artıq status yox, “Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizlik məsələləri də oraya salınmalı idi” iddiası ilə həm Ermənistan, həm də onun havadarları buna çalışırdılar. Biz isə deyirdik ki, əgər belə olsa, onda vaxtilə Ermənistandan qovulmuş azərbaycanlıların da hüquqları və təhlükəsizliyi eyni ifadələrlə orada təsbit edilməlidir.

(ardı 8-ci səhifədə)

# Mirzoyanın BCM-dən Azərbaycanla bağlı əsassız tələbi

## Rəsmi İrəvan ali məhkəmə instansiyasını siyasi alətə çevirməyin anonsunu verdi

**Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinə üzvlüyünün təntənəli təqdimat mərasimi keçirilib. Məlum olduğu kimi, ölkə quruma fevralın 1-də rəsmən qoşulub. Bu, BCM-in Roma Statutunun Ermənistanda qüvvəyə minməsi ilə baş verib.**

Qeyd edək ki, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsi (Rome Statute of the International Criminal Court) 15 iyun–17 iyul 1998-ci il tarixləri arasında İtaliyanın paytaxtında keçirilmiş BMT Konfransının qəbul etdiyi Beynəlxalq Cinayət Məhkəməsinin Qurulması haqqında statutdur. 2016-cı ilin mart ayından etibarən 139 dövlət sənədi imzalamış və 123-ü onu təsdiqləmişdir. Yəni, Ermənistan sözügedən əsasnaməni imzaladıqdan sonra təsdiqləyən ölkələr sırasında sayca 124-cüdür. Xatırladaq ki, 2023-cü ilin aprelində Ermənistanın Konstitusiya Məhkəməsi Roma Statutunun qanunvericiliyə uyğunluğunu təsdiqləmişdi. Həmin ilin oktyabrında ölkə parlamenti onu ratifikasiya etmiş, nəhayət, sənəd 2024-cü il fevralın 1-də qüvvəyə minmişdir.

Sözsüz ki, Roma Statutu Ermənistanın anti-Rusiya dirənişində mühüm halqanı təşkil etməkdədir. Nəzərə alaq ki, BCM Rusiya Prezidenti Vladimir Putinin və digər ölkə rəsmilərinin həbsinə order çıxarıb. Deməli, V.Putin bundan sonra Ermənistana daxil olacağı təqdirdə, həbslə üzləşə bilər. Hər halda, İrəvan belə bir öhdəliyi rəsmən öz üzərinə götürüb. Rusiyanın özünə gəlincə, ölkə Roma Statutunu 2000-ci ilin sentyabrında imzalasa da, 2016-cı ilədək təsdiqləməmişdi. 2016-cı ildə Prezident Putin sənədin qəbuledilməzliyinə dair sərəncam imzalamışdı. Bu qərar ölkənin milli maraqları baxımından izah edilmişdi...

Milli maraqlardan söz düşmüşkən, Ermənistan baş naziri Nikol Paşinyan ötən il “Politoco Europe” nəşrinə müsahibəsində Roma Əsasnaməsinin ölkəsinin təhlükəsizlik maraqları baxımından uyğunluğunu vurğulamışdı. Nikol fikrini belə əsaslandırmışdı ki, İrəvanın hazırkı təhlükəsizlik alətləri tələbatlara cavab vermir və onların yeniləri ilə əvəzlənməsi şərtdir. Erməni baş nazirin bu fikirləri söyləyərkən, Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyün Ermənistana heç bir fayda gətirmədiyini söyləməsi diqqət çəkmişdi. Digər tərəfdən, Paşinyan Roma Əsasnaməsinin vacibliyinə dair izahına Qarabağ məsələsini də əlavə etməyi yaddan çıxarmamış və bildirmişdi ki, bölgədəki Rusiya sülhməramlıları üzərlərinə düşən öhdəlikləri yerinə yetirmirlər. N.Paşinyan sözügedən nəşrə müsahibəsində Roma Statutunun ən böyük hədəfini də açıqlamışdı. Daha dəqiq desək, hədəf kimi Azərbaycanı göstərmişdi. Paşinyan sənədin köməyi ilə İrəvanın Bakını məsuliyyətə cəlb edəcəyini bildirmişdi.

Onu da vurğulayaq ki, Roma Statutunun təsir dairəsi dörd əsas beynəlxalq cinayətlə formalaşır. Bunlar soyqırımı, insanlığa qarşı cinayətlər, müharibə və təcavüz faktlarıdır. Sadalanan cinayətlərlə bağlı BCM-də heç bir məhdudiyyət tətbiq olunmur. Roma Statutuna əsasən, qurum dövlətlərin özlərinin həll etməkdə çətinlik çəkdikləri və müdaxilə etmək istəmədikləri vəziyyətlərdə sadalanan dörd əsas beynəlxalq cinayətin araşdırmasını apara bilər.

Bu yerdə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinə üzvlüyünün təntənəli təqdimat mərasimində nələri söylədiyinə diqqət yetirək. Bəri başdan deyək ki, onun bildirdikləri rəsmi İrəvanın Roma Statutunu Bakıya qarşı istifadə etmək niyyətinin təsdiqidir. Yəni, erməni XİN rəhbəri, faktiki olaraq, N.Paşinyanın aylar öncə bildirdiklərini yenidən gündəmə gətirib.

Beləliklə, A.Mirzoyan vurğulayıb ki, cinayətin qarşısının alınmasında və münaqişələrin sülh yolu ilə həllində BCM-in rolu yüksəkdir. “Təəssüf ki, biz regionumuzda nəinki münaqişənin sülh yolu ilə həllinə tam istəksizliklə, həm də açıq-aşkar müharibə, nifrət və terror yaymaq niyyəti ilə üzləşmişik. Ermənistan Respublikasına qarşı davam edən təcavüz və suveren ərazilərimizin işğalı, ermənilərə qarşı törədilmiş iyrənc vəhşiliklər, Qarabağın etnik təmizlənməsi nəticəsində 100 mindən çox erməninin Ermənistana sığınmaq üçün evlərini tərk etməyə məcbur qalması ilə nəticələnmişdir. Fəlakətli humanitar durum regionumuz üçün birbaşa təhlükə törətməkdə davam etməkdədir. Bu kontekstdə biz əminik ki, Roma Statutu digər mexanizmlərlə yanaşı, regionumuzda sabitlik və davamlı sülh yolunda mühüm mərhələyə çevrilərək, gərginliyin və vəhşiliyin qarşısını almaq potensialına malikdir”, – deyən A.Mirzoyan eyni fikirləri BCM-in sədri Piter Hofmanla görüşü zamanı da təkrarlayaraq bildirib ki, regionda cəzasızlığın ağır nəticələri ilə üzləşən Ermənistan buna qarşı mübarizə aparmaq və insanlıq əleyhinə cinayətlərin qarşısını almaq naminə qüvvələri birləşdirməyin zəruriliyini yaxşı dərk edir və bu məqsədlə BCM-ə üzv olub.

Göründüyü kimi, Ermənistan BCM müstəvisinə özünün anti-Azərbaycan platforması üçün alətə çevirmək niyyətini ilk fürsətdəcə ortaya qoydu. Hesab edirik ki, bundan sonra rəsmi İrəvan Azərbaycanın BCM müstəvisində məsuliyyətə cəlbi istiqamətində fəaliyyətə başlayacaq. Belə yanaşma, şübhəsiz ki, Cənubi Qafqazda sülh və sabitliyin yaranmasına ciddi əngəl törədən faktordur. Mirzoyanın sözləri sülhün səmimiyyət mühitinə ziddir.

Sonda BCM-nin əsas fəaliyyət qayəsinə bir daha diqqət yetirməyi vacib sayırıq. Yuxarıda da vurğulandı ki, qurum insanlıq əleyhinə cinayətlərin qarşısını almağı, mövcud istiqamətdə beynəlxalq cəza mexanizmlərinin tətbiqini hədəf seçir. Məsələ burasındadır ki, Ermənistan kimi insanlıq əleyhinə cinayətlər törətmiş, otuz ilə yaxın müddətdə işğalçılıq siyasəti həyata keçirmiş, BMT-nin və digər qurumların işğala son qoyulması ilə bağlı çağırışlarına, rəsmi sənədlərinə məhəl qoymamış bir ölkə BCM-ə üzv olursa, demək ki, bu qurum elan etdiyi təməl prinsiplərdən tam uzaqdır. Bir ölkənin ki, üzərində Xocalı soyqırımı böyüklükdə ləkə var,



onu ali məqsədlər naminə mübarizə apardığı bildirilən quruma necə üzv etmək olar? Əlbəttə, belə yanaşma nonsensdir.

Ancaq görünür, qlobal siyasət oyunlarında alətə çevrilmiş BCM üçün prioritet başqadır. Məqsəd Ermənistanı kollektiv Qərbin anti-Rusiya siyasətində möhkəmləndirmək, mövcud istiqamətdə ona yeni alət qazandırmaqdır. İrəvan isə bu “imtiyazı” özünün anti-Azərbaycan ritorikası üçün “vasitəyə” çevirməkdədir. Deməli, Ermənistan ölkəmizə qarşı çıxmaq üçün əlinə düşən heç bir şansı qaçırmır. Bu isə dediyimiz kimi, sülhün səmimiyyət paradiqmasına tam zidddir.

***Ə.RÜSTƏMOV***
***XQ***

I məqalə

# Yeni tarixin ilk səhifəsi: seçki və quruculuğun strateji məqamları

***Ulu öndər öyrədirdi ki, tarix həmişə hər şeyi öz yerinə qoyur. Ola bilər ki, bu ümumdünya qaydasına kimlərsə əngəl törətməyə, şər-böhtan atmağa çalışsın, lakin sonucda ədalət qalib gəlir. Azərbaycan artıq 20 ildir ki, ədalətin əsas yer tutduğu məkandır və buna görə də qalibiyyət diyarıdır. Bu qələbələrin memarı və birbaşa yaradıcısı isə Prezident İlham Əliyevdir.***

2024-cü il fevralın 7-də bütün Azərbaycanda seçki coşqusu və dünya mediasında da Azərbaycan coşqusu vardı. İnsanlar seçki məntəqələrinə çöhrələrində sevinc, əminlik və qalib xalqın təmsilçisi kimi gedirdilər. Bu tarixi mənzərənin siyasi, ideoloji, geosiyasi və mənəvi mənaları çox böyük və zəngindir.

## Absenteizmə "yox", fəallığa "hə": İlham Əliyevin siyasi inqilabının bir aspekti

Siyasi termin kimi "absenteizm" (lat. absens, absentis – "olmayan") seçicinin səsvermədən yayınmasını, siyasi proseslərə laqeydliyini, dövləti hadisələrə passiv münasibətini, hər hansı siyasi fəallıqdan qaçmasını ifadə edir. Yəni, vətəndaş elektoral funksiyasını yerinə yetirməyə maraqlı olmur, ona bir motivasiya tapa bilmir.

Aydındır ki, bu hal özündə ən azı üç mühüm faktoru ehtiva edir. Birincisi, ölkə miqyasında aparılan siyasət vətəndaşı qane etmir, ikincisi, vətəndaş öz liderinə inanmır və güvənmir, üçüncüsü, vətəndaş özünü cəmiyyətdən təcrid olunmuş, ona yadlaşmış kimi hiss edir. Bu üç faktor bir yerdə, bütövlükdə, sosial mühitdə çox təhlükəli siyasi-psixoloji və ideoloji durum yaradır. Yekunda dövlətçilik və cəmiyyətin gücü ciddi zərər görür. Eyni zamanda, toplum kənar təsirlərə immuniteti zəif halda reaksiya verir. Cəmiyyətin dayanıqlı birləşməsi potensialı minimuma enir. Bu cür cəmiyyətləri asanlıqla kənar təsirlər altına salıb, insanları öz dövlətinə qarşı çıxarmaq imkanı yaranır.

Deməli, absenteist əhval-ruhiyyə faktiki olaraq dövlətçilik və milli maraqlar üçün bir neçə aspektdə təhlükəyə çevrilir. Onlar cəmiyyətin azad qərarlar qəbul edən güclü toplum olmasına, dövlətin müstəqilliyinə, iqtidar-xalq münasibətlərinin dayanıqsız olmasına və vətəndaşların öz liderinə inam və güvəninin sarsılmasına aparıb çılxara bilir. Bu məsələlər xüsusilə cəmiyyət yeni bir mərhələyə keçid dövründə olanda daha da həssaslaşır.

7 fevral seçkilərinin tarixi, siyasi, ideoloji, dövləti, demokratik və milli əhəmiyyətini dərindən dərk edənlər üçün yuxarıdakı faktorlar strateji mahiyyət daşıyırdı. Buna görə də dünyanın müxtəlif dairələri Azərbaycanı tarixi bir sınaqdan keçən dövlət və cəmiyyət olaraq izləyirdilər. Onları İlham Əliyevin son 20 ildə cəmiyyətin fərdlərini, bütövlükdə, kollektiv şüuru və dövlətçilik ideyasını necə yeniləşdirdiyi maraqlandırırdı. Qısa desək, tarixi sınaq siyasi təfəkkürün çox dərinliklərində və güzəştsiz şərtlər daxilində aparılan mübarizənin fonunda konkret məzmun almışdı! Bütün bunlara seçkinin gedişi və nəticələrinə görə Azərbaycan xalqının cavabı qəti, birmənalı və əminliklə oldu: Azərbaycan seçicisi fəaldır, cəmiyyətdə və dövlətdə gedən proseslərə həssasdır, dövlətçiliyin keşiyindədir, milli qürur və ləyaqətini bundan sonra da yüksək tutacaqdır, öz liderinə böyük inamı vardır və ona güvəni sonsuzdur!

Müasir mərhələdə müstəqil dövlətlərin cəmiyyətdə bu cür vəziyyət yarada bilməsi liderin ciddi siyasi dönüş etməsi kimi qəbul olunur. Çünki xüsusilə sovetlər kimi totalitar bir rejimdən çıxmış toplumlarda vətəndaşın siyasi proseslərə laqeydliyi çox olur.



Təcrübə göstərir ki, postsovet məkanı ölkələrində elektoratı həmin absenteist haldan xilas etmək olduqca mürəkkəb bir işdir. Bunun üçün dövlət başçısı və liderin şəxsi nümunə göstərməsi və dövlət üçün konkret müsbət iş görməsi tələb olunur. İnsanlar konkret əməldə, davranışda və əldə olunan nəticələrdə özlərinə inamı, liderə güvəni və gələcəyə əminliyi yarada bilərlər!

Postsovet coğrafiyasında İlham Əliyev elə uğurlar qazandı ki, Avrasiya məkanında bənzəri yoxdur. 30 illik işğala tamamilə son qoydu, ölkəni hərtərəfli inkişaf etdirdi, total islahatlar apardı, idarəetmənin institusional aspektini təkmilləşdirdi. Azərbaycanda güclü birliyi olan multikultural cəmiyyət yaratdı. Bütün ölkə ərazisində suverenliyi tam təmin etdi!

Bunlar Azərbaycan cəmiyyətində birmənalı olaraq absenteizmə "yox", siyasi fəallığa isə "bəli" cavabını yaratdı! Beləliklə, seçki günü Azərbaycan seçicisi öz davranışı ilə çoxmənalı siyasi mesajlar verdi. Onların işığında bir neçə məqama da diqqət yetirək.

## İnklüziv legitimlik: Azərbaycan Avrasiyada ilk nümunədir

Bu tezis seçkinin rəqəmlərdə ifadə olunan say göstərcilərinin semantik və mahiyyət izahından formalaşır. Prezidentliyə namizədlərdən olan İlham Əliyev 92,05 faiz səslə qalib gəldi. Digərləri toplam olaraq 7, 95 faiz səs toplamış olur. Onları da hər fərdə bölsək, təqribən, 1 faiz olur. Bu, o deməkdir ki, İlham Əliyevə rəqib ola biləcək namizəd olmamışdır. Yəni cəmiyyətdə indiki Prezidentin nüfuzu o dərəcədə yüksəkdir ki, seçicinin ictimai, siyasi və ideoloji mövqeyini tam olaraq müəyyən edir.

Siyasi aspektdə bu hadisənin izahı ondan ibarətdir ki, İlham Əliyevə cəmiyyətin mütləq əksəriyyəti inanır, ona güvənir və qəbul edir. Seçki konktestində isə bu cür durum İlham Əliyevin "inklüziv legitim"liyə nail olduğunu ifadə edir.

"İnklüziv legitimlik" cəmiyyətin bütün kəsimlərinin liderin hüquqiliyini və qanuniliyini qəbul etməsi deməkdir. Deməli, İlham Əliyev hazırda Azərbaycan cəmiyyətinin inklüziv lideridir! Buna kimsə şəkk-şübhə edə bilməz. Bu aspektdə beynəlxalq səviyyədə Azərbaycana qarşı qərəzli olan və ona dost olmaq istəməyən dairələr belə arqumentsizdirlər!

Onu vurğulayaq ki, Avrasiyada bu vəziyyət hələlik yalnız Azərbaycanda mövcuddur. Digər postsovet respublikaları və Avropa dövlətlərində vəziyyət fərqlidir. Orada cəmiyyətin legitimlik məsələsində parçalanması artıq çoxdandır ki, daha dərinlərə işləyir. Təsadüfi deyildir ki, həmin dövlətlərdə dövlət başçısının və partiya liderinin dəyişməsi ilə sosial-siyasi əhval-ruhiyyə də dəyişir. Hətta ABŞ-da da vəziyyət bu cürdür. Məsələn, D.Tramp dövründə demokratlar legitimliyi qəbul etmirdilər və müxtəlif ittihamlar irəli sürürdülər, indi C.Baydenin demokrat kimi inklüziv legitimliyi respublikaçılar tərəfindən qəbul edilmir və ciddi savaş gedir.

Fransada E.Makronun legitimliyi ona qarşı olan kütləvi etiraz aksiyaları prizmasında şübhəli görünür və bu anlamda onun inklüziv legitimliyindən danışmaq mümkün deyildir. Almaniyada A.Merkelə ciddi müxalifət yaranmışdır və indiki hakimiyyətə qarşı olan sosial kəsimlər mövcuddur. Başqa misallar da göstərmək olar. İlham Əliyevin legitimliyini isə Azərbaycan cəmiyyətinin bütün sosial kəsimləri və siyasi mühiti qəbul edir!

## Liderə inam və güvən: gələcəyə olan ümidlərin işığında

Azərbaycan seçicisi lideri İlham Əliyevə tam inamını və həyata keçirdiyi layihələrə güvənini açıq ifadə etdi. Bu, seçkidən sonra İlham Əliyevin qələbəsini coşqu ilə qeyd edən on minlərlə Azərbaycan vətəndaşının davranışları və sözləri təsdiq edir. Seçkiyə qədər vətəndaşlar Prezidentin gördüyü işlərə inanırdılar. Bu əsasda güvənləri də tam idi!

Bununla yanaşı, seçki prosesi, nəticələri və onlara vətəndaşın reaksiyası çox mühüm hadisədir! Azərbaycan vətəndaşı bayraqla, "Qalib xalqın Qalib lideri" şüarı ilə küçələrdə, meydanlarda öz sevincini, emosional coşqusunu bölüşdüsə, bu, o deməkdir ki, İlham Əliyevə elə inanır və elə güvənir ki, bu yolda hər cür fədakarlığa hazırdır! Azərbaycan vətəndaşı nümayiş etdirdi ki, Ulu öndər dediyi mənada azərbaycanlı olması ilə fəxr edir! Bu fəxarət duyğusunun sintezində liderə inam və güvən formalaşmışdır. Onun oyatdığı duyğulardan biri də gələcəyə olan ümiddir!

Gələcəyə olan ümid dövlətçilik və cəmiyyətin birliyi baxımından çox vacib faktordur. Çünki gələcəkdə toplumun kollektiv fəaliyyətinin məzmun və mahiyyəti indiki dövrdə formalaşmağa başlayır. Əgər bundan sonrakı müddətə insanlar ümidlə baxırlarsa, bu, bəri başdan psixoloji natamamlıq kompleksinin aradan qaldırıldığı əlaməti deməkdir!

İndi bütün cəmiyyət qalib liderin bundan sonra da yeni zirvələr fəth edəcəyinə tam əmindir. Bu prosesin asan olmayacağı aydındır. Lakin qarşıya qoyulan istiqamətlərin möhtəşəmliyi, dövləti əhəmiyyəti, inkişaf potensialı və yeniliyi bütövlükdə toplumu motivasiya edir. Prezident bu istiqamətləri ümumi şəkildə artıq ifadə etmişdir.

## Sinqulyarlıq mərhələsinin fəthi: İlham Əliyevin intellektual, mədəni və informasiya həmləsi!

Prezident İlham Əliyev yeni tarixi mərhələnin əsas vəzifələrinin konkret müddəaları ilə faktiki olaraq seçkiyə getmişdir. Azərbaycan liderinin müəyyən etdiyi əsas hədəflər yeni tarixi mərhələnin məqsədi, məramı və strateji hədəflərini aydınlaşdırır və hər kəsi bu istiqamətdə fəaliyyətə cəlb edir. Bura hər bir vətəndaşın rifahının davamlı yaxşılaşdırılması, insan hüquq və azadlıqlarının təmin edilməsi, qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan dayanıqlı iqtisadi artım, sürətli və dayanıqlı inkişaf edən biliktutumlu iqtisadiyyatın gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış, milli maraqlara söykənən müstəqil xarici siyasət, müasir, milli köklərə bağlı, vətənpərvər gəncliyin inkişafı, demokratik inkişaf, insan hüquq və azadlıqlarının təmin edilməsi daxildir.

Müəyyən edilən istiqamətlərin mahiyyətindən görünür ki, Prezident, faktiki olaraq, müasir cəmiyyətin bütün sferalarını əhatə edən inkişaf istiqamətlərini və onları reallaşdırma şərtlərini müəyyənləşdirmişdir. Bu istiqamətlərdə cəmiyyətin sosial, mədəni, siyasi, iqtisadi, texnoloji, informasiya, mənəvi-əxlaqi, mədəni, ideoloji, geosiyasi, təhlükəsizlik, cəmiyyətin və dövlətin

> ***Özünün missiyasına sönməz inamı olan lider tarixin gedişini dəyişə bilər.***
> **Mahatma QANDİ**

gücləndirilməsi kimi məqamlar ciddi surətdə yer almışdır. Həmin istiqamətlər sintez halında Azərbaycanı dövlət və cəmiyyət olaraq keyfiyyətcə yeni yüksək mərhələyə çıxarmalıdır. Elə bir səviyyəyə ki, alimlərin "sinqulyar keçid" adlandırdıqları tarixi mərhələdə Azərbaycan uğurlu dövlət olsun!

"Sinqulyarlıq" latıncadan tərcümədə "yeganə", "xüsusi" anlamını verir. Bu termin hazırda müxtəlif sferalar üzrə fərqli anlamlarda işlənilir. Məsələn, fəlsəfədə sinqulyarlıq hadisənin vahidliyini, təkrarolunmazlığını, yeganəliyini ifadə edir. Riyazi sinqulyarlıq elə nöqtədir ki, riyazi funksiyası qeyri-requlyar davranışla xarakterizə olunur. Bunlarla yanaşı, geosiyasi sinqulyarlıq", "siyasi sinqulyarlıq", "sivilizasion sinqulyarlıq" "mədəni sinqulyarlıq", "antropoloji sinqulyarlıq", "texnoloji sinqulyarlıq" kimi ifadələr işlənilir. Bunlar, ümumiyyətlə, sinqulyarlığın özəl sferalara tətbiqi ilə əlaqəlidir.

Dövlətin inkişafı kontekstində isə sinqulyarlığın konkret sahə üzrə məzmun detallarına deyil, bütövlükdə, bu anlayışa xas olan ümumi anlama önəm verilir. Bu baxımdan dövlət quruculuğu və cəmiyyətin inkişafı üçün sinqulyarlığın elə bir mərhələ olması anlamı üstünlük təşkil edir ki, həmin mərhələni siyasi, geosiyasi, iqtisadi, informasiya, texnoloji, idarəetmə, təhlükəsizlik və s. baxımından indi mövcud meyarlar prizmasında dərk etmək mümkün olmur.

Bu mənada, "siyasi və dövləti sinqulyarlıq" hazırda mövcud olandan ciddi keyfiyyət və funksional fərqləri olan bir vəziyyətdir. Məsələn, "texnoloji sinqulyarlıq elə bir hipotetik məqamdır ki, orada texnoloji tərəqqini indiki dərketmə meyarları ilə anlamaq imkansız olur. Alimlər bunun səbəbini texnoloji yeniliklərin çox sürətli və mürəkkəb xarakter alacağı ilə izah edirlər. Məsələn, hələ 1965-ci ildə İrvinq Qud (ingilis riyaziyyatçısı) texnologiyaların inkişafında maşınların özlərinin maşın istehsal edəcəyi mərhələsinin gələcəyini yazırdı. Bu mərhələdə süni intellekt yaradıcı potensialına görə insanların imkanlarını üstələyəcək. Bu zaman hansısa "intellektual partlayış" baş verə bilər.

Sinqulyarlığın detallarına getməyək. Lakin anlayırıq ki, bütün bəşəriyyətin bu cür ciddi keyfiyyət dəyişiklərinin olacağına inamın yarandığı bir mərhələdə müstəqil dövləti davamlı inkişaf kursu üzrə tərəqqi etdirmək olduqca çətin, mürəkkəb və yüksək strateji zəka tələb edən prosesdir. Buna yeni liderlik fəlsəfəsi və yeni lider lazımdır! İlham Əliyevin seçki platforması və qarşıya qoyduğu yeni tarixi mərhələnin başlıca özəllikləri göstərir ki, Azərbaycan lideri həmin vəzifənin öhdəsindən uğurla gəlmək üçün ciddi intellektual, mədəni və informasiya həmləsi hazırlamışdır! Bunun mahiyyəti nədən ibarətdir?

**(ardı var)**

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

# Seçimlər arasında seçim

**Seçkilər haqqında, yəqin ki, ən möhtəşəm əsər Joze Saramaqonun "Görmə" romanıdır. Müəllif "Sivil dünya" adlandırdığımız coğrafiyanın seçimlərini saf-çürük edir.**

## Bizə, sadəcə, yeni hakimiyyət lazımdır, yoxsa gerçək mahiyyət?!



Bilirsiniz, məsələ siyasi seçimlərin Saramaqodakı bədii təhkiyəsi deyil; saf-çürük edilmə zamanı saflar "çürük", çürüklər "saf" "çıxa da bilir. Çünki...

Seçkilər ideal bir prosedur deyil, ancaq, Uniston Çörçill demişkən: "Daha yaxşısı kəşf edilməyib".

Amma, bir dəqiqə! Bəlkə, kəşf edilib. Demokratiyanın ana mayası... şübhədirsə, icazə verin demokratiyanın özündən də şübhələnək.

Dünyaca məşhur futuroloq Con Neysbitin "Meqatrendlər" kitabını bir neçə il əvvəl oxumuşdum. Bu, Amerika Birləşmiş Ştatlarının niyə və necə superdövlət olduğuna dair fundamental analiz idi. Bu kitabı bizdən qabaq Çinin prezidenti öz dilində oxumuş, Con Neysbiti Pekinə çağırmış və ölkəsinin inkişaf strategiyasından bir kitab yazmağı istəmişdi. Con bu təklifi, necə deyərlər, havada qapmış və öz xanımı Dorislə birlikdə "Çin meqatrendləri" adlı möhtəşəm əsərini yazıb ortaya qoymuşdu.

Düzü, bilmirəm, bu kitablar bizim dilimizə tərcümə olunub, yoxsa yox. Çox yaxşı olardı.

Yenicə oxuyub bitirdiyim "Çin meqatrendləri"ndə müəlliflər bu nəhəng Şərq ölkəsinin sıçrayışının sirlərini dərindən və obyektiv araşdırıb. Bu kitab Çində yeni miqyaslı tendensiyaları diqqətlə izləyib və konkret nəticələri ortaya çıxarıb.

Əsərlə tanış olarkən, xüsusilə, "Çin möcüzəsi"nin atası Den Syaopinin yaxın silahdaşlarından, məşhur siyasətçi, daha sonra uğurlu biznesmen Çjan Vey-Veyin bir zaman "Faynenşl Tayms"da yer almış fikirləri dərin təəssürat yaradır. O belə deyib: "Çinlilər həyat qabiliyyətinə inanır. Əgər hökumət yaxşı idarə edirsə, deməli, qanunidir".

Burdan çıxan nəticə: dövlət başçısının neçə ildən bir, hökumətin və parlament tərkibinin neçə dəfə dəyişməsi hələ özlüyündə onların legitimliyini tam təsdiq və ifadə etmir. Əsas sual budur: ölkə necə idarə olunur?! Çin-sayağı narrativə görə, ölkəni yaxşı idarə edən hökuməti, sadəcə, prosedur gərəyi olaraq dəyişmək ağıllıca deyil.

Bu yanaşmanı təhlil edərək Neysbitlər belə bir nəticəyə gəliblər: "Bütün əlamətlər qlobal dəyişikliyin davamını göstərir – Qərbin əvəzinə Şərq"

Bu qənaət, doğrudursa, bütövlükdə qlobal idarəçilik fəlsəfəsini, doğrudan da, dəyişir.

"...Çindəki müşahidələrimizdən sonra çağdaş Qərb demokratiyasının yeganə məqbul idarəçilik forması olduğuna şübhə etmək lazım gəlir", – deyə müəlliflər yazırlar.

Bax, burada biz məqaləmizin əvvəlindəki fikrimizin – əsasında şübhə dayanan idarə üsulunun, yəni demokratiyanın özündən şübhələnməyimizin təsdiqini tapdıq. Amerikalı araşdırmaçılar Çini ABŞ-a, ümumilikdə, Qərbə qarşı uğurlu antimodel olaraq görürlər.

Bu, Frensis Fukuyamanın "Tarixin sonu" əsərində Qərb dəyərlərinə söykənən qlobal düzənin yeganə doğru-düzgün paradiqma olduğu haqda iddialarını şübhə altına alır.

Eyni yanaşma qlobal miqyasdan lokal miqyasa da proyeksiya oluna bilərmi?! Axı bizə: "Qlobal düşün, lokal davran" deyə öyrətdilər.

Den Siyaopinin bütün mənalarda çin olmuş "Çin möcüzəsi" – o cür geniş coğrafiyada və o cür nəhəng cəmiyyətdə yaradılmış yeni gerçəklik nisbətən kiçik miqyaslarda, zəruri korrektivlərlə niyə model ola bilməz ki?!

Uzaq tarix deyil; bizim nəsillərin gözləri önündə "Mədəni inqilab" dövrünün geridəqalmış, yarımvassal Çini yeni bir yanaşma ilə sürətli sıçrayış etdi və dünyada ikinci superdövlət" halına gəldi. Hazırda isə ABŞ-la yeganə superdövlət taxt-tacı üstündə rəqabətə keçib. Bu, bəzi coğrafiyalarda, bəzi məqamlarda açıq ticari maraq toqquşmalarından geosiyasi və hətta qaynar hərbi konfliktlərə də çevrilir ki, bu, başqa bir söhbətin mövzusudur.

Əgər biz birmənalı olaraq Qərb tipli demokratiya modelindən imtina etsək, o zaman, qarşımızda siyasi sistemi konservativ saxlamaqla iqtisadiyyatı liberallaşdıran, nəticədə öz inkişafında effektiv nəticələr qazanmış Çin modeli var.

Sözün düzü, Azərbaycan da bir möcüzənin müəllifidir artıq. Gəlin, ifrat təvazökarlıqdan əl çəkək; özümüzü kiçik görməkdə davam etsək, daha da kiçiləcəyik. İfrat təvazökarlıq özü də haradasa elə riyakarlıq olardı.

Azərbaycan hərbi-siyasi müstəvidə bir möcüzəyə imza atıb. Bu da elə dünya miqyasında bir möcüzədir. Azərbaycanın öz cəmiyyəti də bunu belə qəbul edir. Azərbaycan özünün bir neçə yüz illik tarixində ilk dəfədir ki, işğal olunmuş torpaqlarını hərbi və siyasi yollarla azad edib.

Dünyanın bəlli coğrafiyalarında müsəlman toplumlar məğlubiyyətə uğradıldığı halda, hətta, bütöv müsəlman ölkələri darmadağın edilib çökdürüldüyü yerdə, Qafqazda "qəfildən" bir müsəlman ölkəsi, əsasən, hərbi, qismən də siyasi yollarla öz ərazi bütövlüyünü və suverenliyini bərpa edir. Bunun nə demək olduğunu, məncə, hələ özümüz də tam təsəvvür edə, dəqiq dəyərini verə bilməmişik (bu baxımdan prezident seçkilərinin nəticəsi ən adekvat indikator olacaq). Ukrayna kimi 50 milyon civarında xristian cəmiyyəti olan, ərazisinə və ehtiyatlarına görə, Avropanın ən böyük dövlətlərindən biri NATO çətiri altına keçmək istədi deyə bu gün darmadağın olmaq təhlükəsi qarşısında qalarkən, 10 milyonluq müsəlman toplumun ölkəsi – Azərbaycan tarixi Şuşa Bəyamnaməsinə nail olmaqla NATO-nun ilk ən böyük beş ordusundan birinin – Türkiyənin təhlükəsizlik qarantiyasını alır və öz sərhədlərinə tam nəzarəti və dövlətçiliyini möhkəmləndirir.

Üstəlik, işğal edilmiş bütün ərazilərin azad olunmasına bərabər səviyyədə, hərbi qələbəyə tam ekvivalent məsuliyyət dərəcəsində bir proses də var axı: azad olunmuş ərazilərin bərpası və əhali ilə təkrar təhlükəsiz məskunlaşdırılması özü də çox nəhəng koqnitiv, fiziki və maddi resurs tələb edir. Biz o ərazilərin heç də hamısını itirilməzdən əvvəlki vəziyyətdə – sağ-salamat qaytarmamışıq; düşmən nəinki dirimizin evini, hətta ölümüzün qəbrini belə dağıdıb.

O torpaqları azad etməyimiz bir möcüzə idi, ikinci möcüzə dünyanın kömək vədinə xilaf çıxdığı yerdə, əraziləri təkbaşına, öz gücümüzlə və ən müasir standartlarla bərpa etməyimiz olacaq. Bunu "dinc savaş" da adlandıra bilərik ki, burada müttəfiq də özümüzük, rəqib də...

Bütün bunları görməmək – hazırkı qlobal və regional geosiyasi şərtlərdə xalqların və dövlətlərin təhlükəsizlik maraqlarının bütün başqa həyati maraqlarından belə önə keçdiyini idrak etməmək düşüncə miqyasının kiçildiyindən, obyektiv dəyərləndirmə qabiliyyətinin korşaldığından, reallıq hissinin itirildiyindən irəli gəlmirsə, deməli, ortada hansısa məkrli maraqlar prizmasından yanaşma var.

Ölkədə hakimiyyətə gəlmək və ya hakimiyyəti qoruyub saxlamaq üçün gərək əvvəlcə ölkənin özünü qoruyub saxlayasan. Elə deyilmi?!

Əslində, sualın cavabı özündədir...

**PS .** Yazının əvvəllərinə dönsək, işin doğrusu budur ki, Azərbaycan "hərbi möcüzə" ilə yetərlənməyəcək; iqtisadi, sosial və intellektual sferalarda da möcüzə yaratmalı olacaq; hərbi qələbəni iqtisadi sıçrayışa, onu da sosial rifaha və koqnitiv inkişafa konvertasiya edəcək. Bizim hazırda yeni milli ideyamız, məncə, budur.

Bir sözlə, hər seçkidə biz, əslində, yeni, yaxud "köhnə-yeni" hakimiyyət seçmirik, yeni mahiyyət seçirik. Təbii ki, seçimlərimizin gerçək mahiyyətinə varmaqla...

**Bahəddin HƏZİ**

# “Şərqin qapısı”nda Naxçıvan muxtariyyəti

*Qədim diyarda muxtar qurum yaranmasının 100 illiyi təntənəsi*





**Fevralın 9-da Naxçıvan şəhərində qədim diyarda Muxtar Respublika yaranmasının 100 illiyi münasibətilə təntənəli yubiley mərasimi keçirilib.**

Şənlik iştirakçıları əvvəlcə Naxçıvanı erməni işğalından xilas etmiş ümummilli lider Heydər Əliyevin onu xalqımıza bəxş etmiş şəhərinin baş meydanındakı abidəsini ziyarət ediblər. Heykəlin önünə güllər düzülüb, Ulu öndərin xatirəsinə dərin ehtiram ifadə olunub.

Yubiley təntənəsi Heydər Əliyev Sarayında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Muxtar Respublika Ali Məclis sədrinin müavini Anar İbrahimov, Baş nazir Səbuhi Məmmədov, digər rəsmi şəxslər və ictimaiyyət nümayəndələri və qonaqların iştirakı ilə davam edib. Sarayın foyesində Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yubileylə bağlı hazırladığı veb sayt, poçt markası, posterlər iştirakçılara təqdim edilib. “Şərq qapısı” qəzetinin təşkil etdiyi fotosərgidə isə muxtar diyarın zəngin təbiətini, çoxəsrlik tarixini və təkrarsız abidələrini əks etdirən fotolarnümayiş etdirilib.

Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək Prezident İlham Əliyevin, Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın, baş nazir Əli Əsədovun, eləcə də digər rəsmi şəxslərin muxtar respublikanın 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.

Əlamətdar yubileyin Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edildiyi bir şəraitdə qeyd olunmasını xüsusi xoşbəxtlik kimi dəyərləndirən Fuad Nəcəfli Prezident İlham Əliyevə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə Muxtar Respublika ictimaiyyətinin təbrikini səsləndirib, ali dövlətçilik fəaliyyətində ona yeni uğurlar arzulayıb. Səlahiyyətli nümayəndə “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında” Prezident sərəncamına əsasən bu il sislsilə tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb.

Fuad Nəcəfli muxtariyyət tarixinə nəzər salaraq vurğulayıb ki, 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən 2 mühüm beynəlxalq sənəd – Moskva və Qars müqavilələri imzalanıb. Bununla muxtariyyətin əsasları, eyni zamanda, Naxçıvan Muxtar Respublikasının ərazisi təsdiq olunub, onun beynəlxalq müqavilələrlə qorunan toxunulmazlıq hüququ təsbit edilib. 1921-ci ilin martında Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-da Naxçıvan diyarı təşkil olunub. Nəhayət, 1924-cü il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Naxçıvan diyarı Naxçıvan MSSR-ə çevrilib.

Qeyd edilib ki, 1990–1993-cü illərdə Ümummilli liderin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi bu torpağı erməni işğalından, muxtariyyəti isə ləğv olunmaq təhlükəsindən xilas edib. Ulu öndər rəhbərliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan parlamentinin iclasında müstəqil dövlətçilik tariximizlə bağlı mühüm qərarlar qəbul olunub. Həmin iclasda muxtar respublikanın adından “sovet, sosialist” sözləri çıxarılıb, Ali Sovetin adı dəyişdirilib Ali Məclis adlandırılıb. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı isə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunub və onun Azərbaycan Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi barədə respublika parlamenti qarşısında vəsatət qaldırılıb. Azərbaycan müstəqillik əldə etdikdən sonra Ümummilli lider Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli fərmanı ilə Naxçıvanın 75 illik yubileyi geniş qeyd olunub.

Daha sonra bildirilib ki, 2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikasında da mühüm infrastruktur tədbirləri həyata keçirilib, sosial-iqtisadi inkişaf təmin edilib, muxtar respublikanın müdafiə potensialı gücləndirilib. Ölkə başçısının müvafiq sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd olunub. 100 illik yubileylə bağlı sərəncamda isə Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsi kimi yüksək qiymətləndirilib.

2020-ci ildə 44 günlük Vətən Müharibəsində tarixi ədalətin bərpa olunmasında və 2023-cü il sentyabrın 19-20-i tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində Naxçıvanın igid oğulları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazıblar. Beləliklə, istər tarixi qələbəmiz, istərsə də dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa olunması regionda yeni reallıqlar yaratmaqla bərabər, Zəngəzur dəhlizinin açılması perspektivində Naxçıvan Muxtar Respublikasının ölkəmizin digər bölgələri ilə quru əlaqəsini də təmin edəcəkdir.

Ölkə Prezidentinin diqqət və qayğısının nəticəsi olaraq Naxçıvanda müasir idarəetmə modelinin tətbiqi, aparılan institusional islahatlar, nəqliyyat imkanlarının genişləndirilməsi, Azərbaycanda ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublikanın yaşıl enerji zonası elan olunması, bütün bunların yekunu olaraq isə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın qəbul olunması Naxçıvanda yeni inkişaf mərhələsinin əsasını qoyub.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli 100 illik yubileyin dövlət səviyyəsində qeyd olunması ilə bağlı verdiyi sərəncama görə Prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirib, muxtar respublika əhalisini təbrik edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov çıxışında bildirb ki, dövlət başçısının sərəncamda Naxçıvan Muxtar Respublikasının “yaradılması” deyil, məhz “yaranması” ifadəsini işlətməsi onun Naxçıvanın muxtariyyət statusunu qazanmasını kiminsə, ya da kimlərinsə fəaliyyəti deyil, bütövlükdə tarixi və siyasi proseslərin məntiqi davamı kimi qiymətləndirməsinin təzahürüdür. Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov qədim, zəngin, çoxəsrlik tarixə, mədəniyyətə, dövlətçilik ənənələrinə malik və “Şərqin qapısı” adlandırılan Naxçıvanın keçdiyi çətin, eyni zamanda şərəfli inkişaf yolundan bəhs edib.

Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti İsa Həbibbəylinin, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin və Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi Hacıfəxrəddin Səfərlinin çıxışlarında qeyd edilib ki, Ümummilli lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb. Dövlət başçısı zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub.

Sonra Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş videoçarx və Naxçıvan Televiziyasının hazırladığı “Ulu torpaq, Ulu öndər” filmi nümayiş etdirilib.

Təntənəli mərasim bədii hissə ilə davam edib.

**XQ**

# Prezident Kitabxanasının elektron Naxçıvan layihəsi yenilənib

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında Azərbaycan və ingilis dillərində yaradılan və yerləşdirilən “Naxçıvan Muxtar Respublikası–100” elektron layihəsi yeni materiallarla zənginləşdirilib.**

Kitabxanadan bildirilib ki, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı prezident sərəncamına uyğun olaraq yaradılan elektron layihə 7 əsas, 47 alt bölmədən ibarətdir. Bölmələrdə Naxçıvanın həm qədim dövrlərinə, həm də muxtar respublikanın yaradılmasına gətirib çıxaran hadisələr barədə, eləcə də müasir dövrə dair sənədlər toplanıb. Yarımbölmələrdə Naxçıvanın müxtəlif dövrlərdəki inzibati-ərazi və idarəetmə forması barədə sənədlərlə, həmçinin Prezident Kitabxanasının əməkdaşları tərəfindən tərtib edilmiş Naxçıvan tarixinin xronologiyası ilə də tanış olmaq mümkündür.

Layihədə Ümummilli lider Heydər Əliyevin Azərbaycanın dövlət başçısı olduğu dövrlərdə və Prezident İlham Əliyevin son 20 ildə Naxçıvan Muxtar Respublikasına səfərlərinin xronologiyası tərtib edilib. Eyni zamanda, onların Naxçıvanda keçirdikləri müxtəlif görüşlər və iştirak etdikləri tədbirlərdəki çıxışlarının tam mətnləri təqdim olunur.

İstifadəçilərə Naxçıvanın tarixinə, iqtisadiyyatına, mədəniyyətinə və incəsənətinə dair müxtəlif dillərdə 130 fundamental elektron kitab və dövri mətbuatda dərc edilmiş 600 seçmə məqalənin tam mətni təqdim olunur. Biblioqrafiya bölməsində Naxçıvana dair operativ informasiya ilə maraqlanan oxucular üçün Prezident Kitabxanasının fondunda olan 440 kitabın, 188 avtoreferatın və dövri mətbuatda dərc edilmiş 2900 məqalənin biblioqrafik təsvirləri verilib.

Kitabxananın oxu salonunda isə “Naxçıvan Muxtar Respublikası–100” kitab sərgisi təşkil olunub.

**XQ**




Naxçıvan Muxtar Respublikası – 100

# Qədim türk yurdu – Azərbaycanın ayrılmaz hissəsi

**Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi barədə Prezident İlham Əliyevin 2023-cü il dekabrın 30-da imzaladığı sərəncamda deyilir: “2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur. Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır... Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir.”**

Doğrudan da, Naxçıvan elə bir strateji ərazidə yerləşmişdir ki, həm qonşu, həm də böyük dövlətlərin həmişə maraq dairəsində olmuşdur. Ona görə də bu diyar çox çətin sınaqlarla qarşılaşmış və mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Xüsusilə, XIX əsrin 20-ci illərində ermənilərin bu bölgəyə köçürülməsi yerli azərbaycanlıları faciələrlə qarşılaşdırmış və soyqırıma məruz qoymuşdur.



## Rusiyada monarxiyanın süqutu

XX əsrin əvvəllərində Rusiya imperiyasının dağılması, siyasi həyatda yeni müstəqil dövlətlərin yaranması Naxçıvan diyarının da taleyində dərin iz buraxmışdı. Rusiyada çarizm devrildikdən sonra imperiyanın əksər əyalətlərində olduğu kimi, Naxçıvan diyarında da ikihakimiyyətlilik meydana gəlmişdi.

Fevral inqilabı keçmiş Rusiya imperiyasının bütün ərazilərində, o cümlədən Naxçıvanda da tamamilə yeni siyasi şərait yaratdı. 1917-ci il martın 9-da diyarda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə verildi. Bu Komitə Cənubi Qafqazda mülki işləri idarə etmək üçün təsis edilmişdi, ancaq qanunvericilik hüququna malik deyildi. XZK-in sədri V.A.Xarlamov, üzvləri isə M.Y.Cəfərov, K.Abaşidze, M.Papacanov və A.Çxenkeli idi. XZK-in 1917-ci il 26 aprel və 18 iyun tarixli qərarları ilə Naxçıvan diyarına iki müvəkkil (B.Maqsudov, Mxitaryants) təyin edildi.

Naxçıvan, Culfa və Ordubad şəhərlərində Müsəlman və Erməni milli komitələri yaradıldı. Bu komitələr faktiki olaraq yerli idarəetmə funksiyalarını yerinə yetirməyə başladılar. Eyni zamanda, onlar öz silahlı qüvvələrini yaratmaq məqsədilə əhali arasında fəali iş aparırdılar.

1917-ci il noyabrın 11-də Tiflisdə keçirilən müşavirədə gürcü menşevikləri, Azərbaycan müsavatçıları, erməni daşnakları və sağ eserlərin nümayəndələri Rusiya bolşevik hökumətini tanımaqdan imtina etdilər. Belə qərar qəbul edildi ki, Müəssisələr Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün Zaqafqaziya hökuməti yaradılsın. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı. Gürcü menşeviki E.P.Gegeçkorunin rəhbərlik etdiyi hökumətdə 10 komissarlıq təsis edildi. Zaqafqaziya Komissarlığının əsas fəaliyyət istiqamətlərindən biri regionu bolşevik Rusiyasından ayırmaq və Osmanlı Türkiyəsi ilə münasibətləri nizamlamaqdan ibarət idi.

Zaqafqaziya Komissarlığının yaradılması ilə Naxçıvanın inzibati idarəçiliyində əsaslı dəyişiklik baş vermədi. Diyarda Zaqafqaziya Komissarlığının müvəkkilliyi fəaliyyət göstərsə də, yerlərdə əsas hakimiyyət yenə də Milli Komitənin əlində idi. Naxçıvan şəhərində isə Qarışıq Komitə fəaliyyət göstərirdi.

Ərzincan barışı imzalandıqdan sonra (1917, 18 dekabr) rus qoşunları Cənubi Qafqazı, eləcə də Naxçıvanı tərk etdi. Onların malik olduqları silah-sursatı erməni daşnakları ələ keçirdi. Yerli azərbaycanlılarla müqayisədə ermənilər kifayət qədər silah-sursat üstünlüyünə malik oldu. Rus komandanlığı erməniləri silahlandırdığı halda, müsəlmanlara silah verməkdən imtina edirdi.

Yaranmış şəraitdən istifadə edən ermənilər öz qonşularından torpaqlar qoparmağa çalışırdılar. Ermənlərin bu niyyətlərində Naxçıvan torpaqlarının ələ keçirilməsi ilk planda idi. Bu məqsədlə 1918-ci ilin əvvəllərindən başlayaraq daşnakların silahlı dəstələri Naxçıvana basqınlar etmiş, çoxlu dinc əhalini öldürmüşdü.

Osmanlı komandanlığı ermənilərin törətdikləri vəhşiliklərin davam etdirildiyini daşnaklara xatırladıb türk ordusunun müsəlmanların öldürülməsi təqdirində sadəcə müşahidəçi olmayacağını bildirdi. Türkiyə silahlı qüvvələrinin Qafqaz ordusu Baş komandanı Mehmed Vehib paşa öz ordusuna hücum əmri verdi. Osmanlı ordusunun bütün cəbhə boyu irəliləməsi fevralın 23-də Zaqafqaziya Seyminin açılmasına kimi davam etdi. 1918-ci il fevralın 23-də Zaqafqaziya Komissarlığının əvəzinə yeni orqan – Zaqafqaziya Seymi yaradıldı. Həmin il aprelin 22-də Zaqafqaziya Seymi müstəqil Zaqafqaziya Federativ Respublikasının yaradılması haqqında qərar qəbul etdi. A.Çxenkelinin başçılığı altında 12 nəfərdən ibarət yeni hökumət yaradıldı.

## Cənubi Qafqazda müstəqillik dalğası

Cənubi Qafqaz bölgəsində baş vermiş hadisələr son nəticədə Zaqafqaziya Federasiyasının süqutu və üç müstəqil dövlətin - Azərbaycan, Gürcüstan və Ermənistan (Ararat) respublikalarının yaranması ilə nəticələndi. Azərbaycanın müstəqil dövlət elan edilməsi Naxçıvan əhalisində müəyyən ümidlər yaratdı. Naxçıvan diyarının qarşılaşdığı problemləri həll etmək və çətinlikləri aradan qaldırmaq üçün istər yerli əhali və onun başçıları, istərsə də Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən müəyyən işlər görülmüş, ermənilərin ərazi iddialarının və etnik təmizləmə siyasətinin reallaşdırılması istiqamətində ilkin cəhdləri dəf edilmişdi.

Erməni tərəfin Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti aparmasına baxmayaraq, Azərbaycan Milli Şurası əzəli Azərbaycan şəhərini–İrəvan şəhərini onlara paytaxt kimi güzəşt edilməsinə razılıq verdi. Azərbaycan hökuməti bu güzəştə getməklə Ermənistanın Azərbaycana qarşı torpaq iddialarından əl çəkəcəyini zənn edirdi. Bu xeyirxahlıq erməni tərəfini yeni-yeni ərazi iddiaları irəli sürməkdən çəkindirmədi. Ermənistan hökuməti bütün İrəvan quberniyasını, Qars vilayətini, Tiflis və Yelizavetpol quberniyalarının bir hissəsini özünün ayrılmaz hissəsi elan edərək, əhalisinin 62,5 faizi azərbaycanlılar olan Naxçıvana da iddia etdiyini bəyan etdi.

İrəvanı siyasi mərkəz kimi Ermənistana vermək məcburiyyətində olan Azərbaycan nümayəndələri şəhəri bu şərtlə güzəştə getməyə razı oldular ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə, yəni Qarabağa, eləcə də İrəvan quberniyasının Naxçıvan diyarına olan iddialarından imtina etsinlər.

Osmanlı dövləti nümayəndələri ilə Batumda aparılan danışıqlarda türk heyəti Azərbaycan torpaqları hesabına ermənilərin lehinə bir sıra ərazi güzəştlərinə gedərək İrəvan şəhərinin də daxil olduğu Yeni Bəyazid və Eçmiədzin bölgələrindən ibarət Ermənistan dövlətinin yaradılmasını təsdiqlədi. 4 iyun 1918-ci il tarixində imzalanmış Batum müqaviləsinin şərtlərinə görə Ermənistan Respublikası Cənubi Qafqazda 9 min kv.km əraziyə malik bir dövlət oldu.

**(Ardı var)**

**İsmayıl HACIYEV,
AMEA Naxçıvan bölməsinin
sədri, akademik**

Təbiət – cəmiyyətin yuvası

# Zığ gölü çirkabdan təmizlənəcək



(əvvəli 1-ci səhifədə)

Şəhər ərazisində yaşıllıq sahələrinin artırılması və açıq məkanların genişləndirilməsi Bakı şəhərinin Baş Planının əsas prioritetlərindən biridir. Bu məqsədlə "Dövlət Şəhərsalma Norma və Qaydaları"na uyğun olaraq, adı çəkilən həmin plan çərçivəsində adambaşına düşən yaşıllıq sahəsinin 8 kvadratmetrə çatdırılması istiqamətində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur. Bu hədəfə nail olmaq üçün mövcud yaşıllıqların qorunması, yeni inkişaf ərazilərində tələb olunan səviyyədə açıq məkanların yaradılması planlaşdırılır.

Bütün bunlar nəzərə alınaraq hazırda Xocahəsən gölünün ətrafında geniş parkın yaradılması, Bakı bulvarının uzunmüddətli perspektivdə Bibiheybət ərazisi daxil olmaqla uzadılması, Böyükşor, Zığ və Bülbülə göllərinin ətrafında yaşıl istirahət zonalarının salınması, həmçinin şəhər daxilində "yaşıl hibrid dəhlizlər" sisteminin tətbiqi prioritet istiqamətdir.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdik. Belə ki, bərpasına dair hələ 2014-cü ildə imzalanmış iki sərəncam olsa da, Bakı şəhərinin ərazisində yerləşən Zığ gölü ilə bağlı acınacaqlı vəziyyət uzun illər ərzində "unudulub". Xatırladaq ki, dövlət başçısı tərəfindən gölün bərpası, mühafizəsi və ondan istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə hələ 15 oktyabr 2014-cü il tarixdə sərəncam imzalanıb. Həmin sərəncamla bu məsələ barədə idarəetmə Ekologiya və Təbii Sərvətlər və İqtisadiyyat nazirliklərinə həvalə edilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinə gölün bərpası, onun mühafizə zonasının istehsalat və məişət tullantılarından təmizlənməsi, mühafizəsi, ekoloji vəziyyətinin yaxşılaşdırılması, gələcəkdə ondan səmərəli istifadənin təmin edilməsi, habelə gölün qorunub saxlanılmasına nəzarəti həyata keçirmək tapşırılıb. Keçmiş "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə isə gölün mühafizə zonasına tullantı sularının təmizlənmədən axıdılmasının qarşısını almaq üçün zəruri tədbirlər görmək həvalə olunub. Bundan başqa, Bakı Şəhər İcra Hakimiyyətinə gölün mühafizə zonasına istehsalat və məişət tullantıları atılmasının, göl səthinin kiçilməsinə səbəb olan kənardan torpaq gətirilib yayılmasının qarşısını almaq tapşırılıb.

Onu da qeyd edək ki, dövlət başçısı 15 oktyabr 2014-cü il tarixdə "Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" ikinci bir sərəncam da imzalayıb. Sənədə əsasən, mühəndislik və layihələndirmə işlərinin görülməsi, gölün mühafizəsinin təşkili və ətraf mühitə təsirinin qiymətləndirilməsi sənədinin hazırlanması məqsədilə Prezidentin Ehtiyat Fondundan İqtisadiyyat Nazirliyinə ilkin olaraq iki milyon manat vəsait ayrılıb. Dövlət başçısının 21 fevral 2021-ci il tarixdə imzaladığı fərmana uyğun olaraq, adı çəkilən nazirlik Zığ gölünə aid bütün sənədləri və məlumatları Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təhvil verib. Bununla da, Zığ gölündən istifadə və onun mühafizəsi sahəsində idarəetmə sözügedən nazirliyə həvalə olunub.

Bütün bunlara baxmayaraq, Zığ gölünün bərpası layihəsi başa çatdırılmayıb. Belə ki, aidiyyəti qurumlar tərəfindən problemin həllini reallaşdırmaq üçün geniş tərkibli işçi qrupun yaradılması, Zığ gölündə monitorinq-tədqiqat işlərinin aparılması nəzərə alınmasa, demək olar ki, elə bir ciddi iş görülməyib.

Düzdür, işçi qrup tərəfindən gölün mövcud vəziyyəti, müdaxilələr, burada mövcud olan neft və digər bərk tullantıların yerləşməsi, miqdarı və digər məsələlər tam öyrənilib, təhlil olunub. Tədqiqat işlərinin ardınca gölün ilkin reabilitasiya ilə bağlı layihə sənədlərinin hazırlanmasına başlanılıb. Onun son tərtibatı isə Fövqəladə Hallar Nazirliyinin müvafiq idarəsinə ekspertiza üçün təqdim olunub. Eyni zamanda, bu layihə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə də göndərilib.

Bu günlərdə isə ölkə mediasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi mətbuat xidmətinin rəhbəri İradə İbrahimovanın Bakının Suraxanı rayonu ərazisində yerləşən Zığ gölünün təmizlənməsi və ətrafının abadlaşdırılması ilə bağlı layihənin aidiyyəti dövlət qurumlarına təsdiq olunmaq üçün təqdim edildiyi barədə məlumatı yayılıb.

İ.İbrahimovanın sözlərinə görə, sözügedən gölün bərpası, təmizlənməsi və abadlaşdırılması layihəsi artıq Fövqəladə Hallar Nazirliyinin müvafiq strukturu tərəfindən ekspertizadan keçirilib. Mətbuat xidmətinin rəhbəri, həmçinin bildirib ki, bununla bağlı yekun qərar verildikdən sonra işlərə başlanılacağı, ictimaiyyətə layihə ilə bağlı lazımi məlumatların çatdırılacağı qeyd edilib. Bununla bərabər, Zığ gölünə və onun acınacaqlı ekoloji vəziyyətinə həsr olunmuş videoreportajın hazırlanması başa çatdırılıb.

Mütəxəssislər bildirirlər ki, layihədə Zığ gölünün 120 hektarlıq su sahəsinin 40 hektar əraziyə qədər kiçildilməsi, ətrafda olan neftlə çirklənmiş ərazilərin reabilitasiya olunması, neft və bərk tullantılardan təmizlənməsi nəzərdə tutulub. Bu işlər tamamlandıqdan sonra isə göl ətrafında, təxminən, 100 hektar ərazini əhatə edəcək yaşıllıq zolağının salınacağı, ağaclar əkiləcəyi planlaşdırılıb.

Bütün bunlarla yanaşı, layihəyə əsasən, perspektivdə bu ərazidə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyəti üçün şərait də yaradılacaq. Gölün qərb tərəfində isə sosial evlərin tikilməsi üçün ərazi ayrılacaq. Amma bütün bunlara qədər, ilk növbədə, gölə olan müdaxilənin qarşısı alınacaq.

Hazırda Zığ qəsəbəsindən 2 müxtəlif istiqamətdən məişət və tullantı suları birbaşa gölə axıdılır. Layihədə bu axıntının qarşısının alınması və Hövsandakı sutəmizləyici qurğuya yönəldilməsi, burada təmizləndikdən sonra isə göl ətrafında salınacaq yaşıllıq zolaqlarının suvarılmasında, həmçinin göldə su balansının saxlanılmasında istifadə olunması nəzərdə tutulur.

Layihəyə uyğun olaraq, Zığ gölünün Xəzərlə də əlaqəsi olacaq. Belə ki, göldə balansı qorumaq üçün su səviyyəsi gözlənilən həddi keçdiyi zaman onun bir qismi dənizə bu əlaqə vasitəsilə axıdılacaq.

Sonda qeyd edək ki, digər Bakı gölündə – Bülbülədə isə bulvarın yaradılması işləri sürətləndirilib.

***Vaqif BAYRAMOV***
***XQ***

# "Ali Radanın AŞPA-ya və Milli Məclisə müraciəti öz rolunu oynamalıdır"

**Avropa Şurası Parlament Assambleyasında yaranmış vəziyyət, hesab edirik ki, təəssüf doğuran anlaşılmazlıqdır.**

Bu fikri AŞPA-nın qış sessiyasında Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin təsdiq edilməməsi ilə bağlı qərara münasibət bildirən Ukraynanın hakim "Xalqın xidmətçisi" fraksiyasının Ali Radadakı rəhbəri David Araxamiya AZƏRTAC-a müsahibəsində deyib.

"Yaranmış vəziyyətə görə təbii ki, çox üzüldük. AŞPA-da baş vermiş vəziyyət, hesab edirik ki, təəssüf doğuran anlaşılmazlıqdır. Hisslərə qapılmaq lazım deyil. Bizim parlamentin Xarici əlaqələr komitəsi həm Azərbaycan tərəfinə, həm də AŞPA-ya müraciət edib. Bir xahişimiz var, – biz bu prosesin subyekti deyilik və iştirakçı kimi ortada olmaq istəmirik, – istəyirik ki, hər iki tərəf danışıqlar masası arxasında əyləşsin, ümumi razılıq əldə edilsin və hər şey olduğu kimi geri qaytarılsın", – deyə David Araxamiya bildirib.




AŞPA-nın üzvü olmadığını xatırladan D.Araxamiya bu qurumun mövqeyinin dəyərlərə necə zərbə vuracağını qiymətləndirə bilmədiyini qeyd edərək deyib: "Azərbaycan multikultural ölkədir, burada müxtəlif dinlərə, millətlərə tolerant yanaşılır, dözümlülük var. Mən Azərbaycanda küçələri gəzmişəm, sadə azərbaycanlılarla söhbət etmişəm. İnsanlar bu ölkədə özlərini çox təhlükəsiz hiss edirlər, kriminogen durum çox aşağı səviyyədədir".

Azərbaycanda növbədənkənar prezident seçkilərinin nəticələrinə dair sualı cavablandıran fraksiya rəhbəri İlham Əliyevi yenidən Prezident seçilməsi münasibətilə təbrik edib. "Mən cənab Əliyevi şəxsən tanıyıram. Mən də prezidentimizin təbrikinə Ukrayna xalqı adından qoşuluram, Azərbaycan xalqı bizim üçün qardaş xalqdır. Ukraynada çoxlu azərbaycanlı yaşayır, ona görə də mən Prezidentinizə, ölkənizə səmimi-qəlbdən cansağlığı, firavanlıq arzulayıram", – deyə David Araxamiya bildirib.

O, Azərbaycanın Ukraynaya müharibə dövründə humanitar yardımlarını yüksək qiymətləndirərək bildirib ki, müharibə zamanı Azərbaycan Ukraynanın dost dövlətləri arasında ən tez reaksiya verənlərdən biri oldu.

**Ermənistan hökuməti Rusiyadan uzaqlaşmaq istiqamətində fəaliyyətini davam etdirir. Baş nazir Nikol Paşinyanın fevralın 1-də ölkəsinin ictimai radiosunun "Təhlükəsiz mühit" proqramına müsahibəsində səsləndirdiyi fikirlər həmin siyasi kursun dəyişilməyəcəyini bir daha təsdiqləyir.**

N.Paşinyan müsahibəsində Ermənistan silahlı qüvvələrində aparılan islahatların mərhələlərindən danışıb. Jurnalist baş nazirdən islahatın yekun konsepsiyasının olmamasının səbəbini soruşub. Baş nazir deyib: "Bu konsepsiya 2022-ci ilin yanvarında hazır idi, lakin 2022-ci ilin qışında həmin konsepsiya ilə irəliləyə bilməyəcəyimizi göstərən hadisələr baş verdi. Biz indi əməkdaşlığımızı, o cümlədən hərbi-texniki sahədə əməkdaşlığımızı nəzərə alaraq konsepsiyanı həyata keçirməyin nə dərəcədə real olduğunu başa düşməliyik. Biz başa düşməliyik ki, həqiqətən, kiminlə hərbi-texniki və müdafiə sahəsində əlaqələr qura bilərik".

# Ermənistan Rusiyadan uzaqlaşmaqda qərarlıdır

Paşinyanın sözlərinə görə, əvvəllər Ermənistanın müdafiə sahəsində sazişlərinin 95–97 faizi Rusiya ilə olub. O, Rusiyanın bir sıra səbəblərə görə hazırda müdafiə və hərbi-texniki sahədə ölkənin əsas tərəfdaşı ola bilməyəcəyini bildirib: "İndi isə həm obyektiv, həm də subyektiv səbəblərə görə belə ola bilməz. İndi biz başa düşməliyik ki, bu konsepsiyada, məsələn, Hindistanla hansı əlaqələrimiz var".

2023-cü ilin noyabrında isə N.Paşinyan bildirmişdi ki, Ermənistan aktiv şəkildə ona silah və döyüş sursatları sata biləcək yeni təhlükəsizlik tərəfdaşları axtarmağa başlayıb. Onun sözlərinə görə, Ermənistan "bu və ya digər səbəblər üzündən" İrəvana hərbi məhsul tədarük edə bilməyən tərəfdaşlarla münasibətləri şaxələndirir. O dəqiqləşdirmişdi ki, söhbət, xüsusilə, Rusiyadan və Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı digər tərəfdaşlarından gedir. Eyni zamanda, N.Paşinyan dəfələrlə bəyan edib ki, Ermənistan bu birlikdən çıxmağı planlaşdırmır.

Bu kontekstdə Ermənistanın müdafiə naziri Suren Papikyanın fevralın 3-də İctimai televiziyaya müsahibəsində səsləndirdiyi fikirlər diqqəti cəlb edir. Papikyan qeyd edib ki, Fransa və Hindistan Ermənistanın silah tədarükündə əsas tərəfdaşlarına çevriliblər. Onun sözlərinə görə, Ermənistanın bağladığı yeni sazişlər "sabahkı günün ordusunun və silahların keyfiyyətini dəyişəcək".

Papikyan bildirib ki, Ermənistan "müxtəlif böyük dövlətlər və digər dost ölkələr səviyyəsində yeni tərəfdaşlar əldə edib". "İlk növbədə, söhbət bizim əsas tərəfdaşlarımıza çevrilmiş Fransa və Hindistandan gedir. Lakin, hələlik, danışmaq istəmədiyim başqa ölkələr də var", – deyə o, qeyd edib.

Erməni nazir vurğulayıb ki, 2022-ci ilin sentyabrında Qarabağda vəziyyətin gərginləşməsindən sonra (2022-ci il sentyabrın 12–14-də Ermənistan–Azərbaycan sərhədində baş vermiş silahlı toqquşma nəzərdə tutulur – S.H.) Ermənistan üçün mövcud silah bazalarının bağlandığı bəlli olub: "Biz silah-sursat alınmasının diversifikasiyasının təmin edilməsi məsələsini qaldırdıq. Bu istiqamətdə mühüm irəliləyişlər və uğurlar əldə etmişik. Başlanmış proses isə müsbət mənada geri dönməzdir".

Qeyd edək ki, N.Paşinyanı Qərbin adamı adlandıranlar yanılmırlar. O, mahiyyət etibarilə Qərbpərəstdir. Paşinyanın siyasi keçmişinə baxdıqda, buna əmin ola bilərsən. Nikolun Macarıstan əsilli amerikalı milyarder, "Soros Fondu" təşkilatlar şəbəkəsinin qurucusu Corc Sorosun maliyyə dəstəyi ilə 2018-ci ilin yazında "inqilab" etdiyinə dair mediada zaman-zaman yayılan fikirlər də əsassız deyil. Hətta, bir sıra ekspertlər tərəfindən Paşinyanın hakimiyyətə gəldikdən sonra Rusiya ilə əlaqələrə yenidən baxacağı proqnozlaşdırılırdı. Ancaq praktika göstərir ki, siyasətçilər müxalifətdə olarkən səsləndirdikləri radikal fikirlərinə hakimiyyətə gələn zaman düzəliş etməli olurlar. Rusiya–Ermənistan münasibətləri isə, necə deyərlər, çox dərinə işləyib və İrəvandakı hansısa hakimiyyət onun üstündən birdəfəlik xətt çəkə bilməz. Bununla belə, N.Paşinyan və onun Qərbpərəst komandasının üzvləri iki ölkənin münasibətlərinin əsaslarını sarsıtmaq üçün əllərindən gələni edirlər.

Rusiyanın 44 günlük Vətən müharibəsi, xüsusilə, ötən ilin sentyabrında baş tutan lokal xarakterli antiterror tədbirləri zamanı tutduğu mövqe Paşinyan hökumətinin anti-Rusiya addımları atması üçün əlində əsas bəhanəyə çevrildi. Paşinyan baş verənlərə görə Rusiyanı qınadı. Öz fikirlərini belə əsaslandırmağa çalışdı ki, onlar Rusiya ilə KTMT-də müttəfiqdir, tərəfdaşdır və Moskva İrəvanı müdafiə etməlidir. Eyni zamanda, bölgəyə yerləşdirilən Rusiya sülhməramlılarından da ciddi narazılıq etdi. Onları fəaliyyətsizlikdə suçladı. Beləliklə, baş verənlər Qərbpərəst Paşinyanın Qərbə doğru daha sürətlə hərəkət etməsi üçün əlində dəstəvuza çevrildi. Necə deyərlər, pişiyin könlü samanlıqda idi... Hazırda Ermənistanda hökm sürən güclü rusofob əhval-ruhiyyə də hakimiyyətin loyallığı şəraitində baş verir. Bunun sonuncu göstəricisi İrəvanda Leninqrad blokadası uşaqlarının xatirəsinə ucaldılmış abidənin bu yaxınlarda təhqir olunmasıdır. Olay Rusiyada böyük etiraz doğursa da, ona yol vermiş şəxslə bağlı indiyədək tədbir görülməyib.

Qərbin Ukrayna məsələsində birlik nümayiş etdirməsi fonunda bir tərəfdən də Ermənistanın atdığı addımlar Rusiyada, necə deyərlər, arxadan zərbə kimi qiymətləndirilir. Bununla bağlı Rusiya rəsmiləri öz mövqelərini dəfələrlə ifadə ediblər. Ermənistan baş nazirinin Rusiyanın bir sıra səbəblərə görə müdafiə və hərbi-texniki sahədə ölkəsinin əsas tərəfdaşı ola bilməyəcəyi barədə bəyanatını şərh edən Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib: "Avropa İttifaqının öz məqsədlərindən uzaq məsələlərlə məşğul olan yalançı müşahidəçilərindən fərqli olaraq, KTMT Cənubi Qafqazda sabitləşdirici rol oynamağa qadirdir. Erməni xalqının maraqları Rusiya ilə yaxın qonşuluq münasibətlərindən ayrılmazdır. Ümid edirik ki, Ermənistan rəhbərliyi bunu nəzərə alacaq və indiki geosiyasi transformasiyalar fonunda düzgün seçim edəcək".

M.Zaxarova qeyd edib ki, İrəvan KTMT çərçivəsində, o cümlədən mümkün təcavüz halında kollektiv təminat altındadır. Onun sözlərinə görə, KTMT çərçivəsində fəal əməkdaşlığa qayıdış, ilk növbədə, Ermənistanın maraqlarına cavab verir.

Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankin isə Ermənistanı KTMT-yə ictimai hücumları dayandırmağa çağırıb. Onun sözlərinə görə, rəsmi Moskva İrəvanı ictimai hücumlar və tənqidlər əvəzinə KTMT-dəki vəziyyəti müzakirə etməyə dəvət edir: "KTMT-nin fəaliyyətinin və onun hərbi-siyasi birlik kimi effektivliyinin daha da təkmilləşdirilməsində hər kəs maraqlıdır. Təbii ki, Ermənistanın tez bir zamanda təşkilat daxilində normal və tam işinə qayıtması buna kömək edərdi. Təəssüf ki, erməni müttəfiqlərimiz indiyə qədər, həqiqətən də, ondan uzaqlaşıblar".

Ermənistan rəsmiləri hazırda Azərbaycanla danışıqları da Qərb ölkələrinin paytaxtlarında – Brüsseldə, yaxud Vaşinqtonda davam etdirməkdə maraqlıdırlar. Azərbaycanın isə belə bir problemi yoxdur. Ölkəmiz bütün platformalarda danışıqlara hazırdır. Ancaq bu gün Moskvadan gen gəzməyə çalışan haylar unutmamalıdırlar ki, İkinci Qarabağ müharibəsinin başa çatmasını şərtləndirən üçtərəfli bəyanat Rusiya Prezidentinin aktiv vasitəçiliyi ilə imzalanıb. Rusiya XİN başçısının müavini Mixail Qaluzin də fevralın 8-də "Rossiya24" kanalına müsahibəsində deyib ki, Moskvanın Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılmasında məqsədi iki ölkəyə barışıq və dinc qarşılıqlı fəaliyyət yoluna çıxmağa kömək etməkdir.

O qeyd edib ki, Rusiya Bakı və İrəvana Ermənistan–Azərbaycan sərhədinin delimitasiyası ilə bağlı məsləhətləşmələr təklif edir, çünki Moskvada topoqrafik materiallar var: "Biz hər zaman sülh müqaviləsi üzrə danışıqlar üçün meydançamızı təqdim etməyə hazırıq. Ümid edirik ki, İrəvanda fəaliyyətləri Rusiya Federasiyasını bu prosesdən sıxışdırmağa, Cənubi Qafqazda mövcud güc balansını pozmaq və bununla da Rusiyanın qonşuluğunda daha bir qeyri-sabitlik mənbəyi yaratmağa yönəlmiş qeyri-regional oyunçuları cəlb etmək səyləri əvəzinə, üçtərəfli sazişlərin həyata keçirilməsinin normallaşmanın ən etibarlı yolu olduğu anlayışı üstünlük təşkil edəcək.

Nazir müavini Ermənistan–Azərbaycan dialoqunda Rusiyanın rolunun alternativinin olmadığını da vurğulayıb. Qeyd edib ki, Rusiyanın himayəsi altında, məhz Putinin təşəbbüsü ilə Ermənistan və Azərbaycan arasında nizamlanmanın əsasları yaradılıb. Rusiya sülh müqaviləsinin bağlanması ilə bağlı bütün məsələlər üzrə yardım göstərir.

**Mövzu ilə bağlı "XQ"yə açıqlama verən politoloq Fikrət Sadıxov bildirdi ki,**



Ermənistan Rusiyaya bir sıra istiqamətlər üzrə çox bağlıdır. Onun sözlərinə görə, bura iqtisadi, hərbi, hərbi-texniki, eyni zamanda, siyasi və mədəni əlaqələr daxildir: "Doğrudur, Paşinyan dəfələrlə Rusiyadan uzaqlaşacaqlarını, Avropa strukturlarına yaxınlaşacaqlarını bəyan edib. Amma bunların hamısı ritorik səviyyədə qalır və bəyanatlardan o tərəfə keçmir. Təbii ki, onlar bəzi Avropa dairələri ilə yaxınlıq etməyə çalışırlar. Amma Avropa Ermənistanı bəzən Rusiyaya qarşı qalxan, yaxud sipər kimi istifadə edir. İrəvan hazırkı geosiyasi konfiqurasiyada çox əlverişli alətdir".

Fikrət Sadıxov qeyd edib ki, N.Paşinyanın bəyanatlarına baxmayaraq, Ermənistan nə MDB, nə KTMT, nə də Avrasiya İqtisadi İttifaqından çıxmayıb və çıxmaq niyyətində də deyil. Politoloq hesab edir ki, İrəvanda hələlik reallıq hissini itirməyiblər. Reallıq isə Rusiya ilə əlaqələrin kifayət qədər sıx olmasından ibarətdir. İrəvan hansısa Avropa ölkələri ilə əlaqələri möhkəmləndirə bilər, ancaq bu, Ermənistanın qısa vaxt ərzində Rusiyadan uzaqlaşmış ölkəyə çevrilməsi demək deyil: "Əlbəttə, bir çox məsələləri zaman göstərəcək. Ancaq yaxın perspektivdə münasibətlərin ciddi şəkildə soyuyacağı, məncə, gözlənilən deyil".

***Səxavət HƏMİD***
***XQ***

# Əli Əsədovun İrakli Kobaxidze ilə telefon danışığı



**Fevralın 9-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovla Gürcüstanın yeni təyin olunmuş Baş naziri İrakli Kobaxidze arasında telefon danışığı olub.**

Nazirlər Kabinetindən bildiriblər ki, Ə.Əsədov Gürcüstanın Baş naziri vəzifəsinə təyin olunması münasibətilə İ.Kobaxidzeni təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Telefon danışığı əsnasında tərəflər Azərbaycan ilə Gürcüstan arasında müxtəlif sahələrdə dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın inkişafını yüksək qiymətləndirib, gələcəkdə də strateji tərəfdaşlığın möhkəmləndirilməsinə ümidvar olduqlarını bildiriblər.

# Ceyhun Bayramov gürcü həmkarını təbrik edib

**Fevralın 9-da Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın yenidən təyin edilmiş xarici işlər naziri İliya Darçiaşvili arasında telefon danışığı baş tutub.**

Ceyhun Bayramov Gürcüstanın yeni qurulmuş hökumətində yenidən xarici işlər naziri təyin edilməsi münasibətilə həmkarını təbrik edib və ona bu şərəfli vəzifəsində uğurlar arzulayıb.

Tərəflər iki ölkə arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin cari vəziyyətini və gələcəkdə bu əlaqələrin daha da inkişafı istiqamətində mövcud planlar və perspektivləri müzakirə ediblər.

***




**Fevralın 9-da Bakıda Azərbaycan və İsveçrə Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, İsveçrə nümayəndə heyətinə isə Federal Xarici İşlər Departamentinin Dövlət katibinin köməkçisi, Avrasiya idarəsinin müdiri xanım Müriel Peneveyre rəhbərlik ediblər.

Görüş zamanı iki ölkə arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri, habelə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq mövzuları müzakirə olunub.

Bu il Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı fikir mübadiləsi aparılıb və bu əlamətdar tədbirin əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaradacağı bildirilib.

# Ailə, qadın və uşaq problemləri davamlı həllini tapır



**Fevralın 9-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2023-cü il fəaliyyətinin yekunlarına həsr olunmuş tədbir keçirilib.**

Komitə sədri Bahar Muradova ötən ildə ərazi bütövlüyümüzün bərpası və bu il seçkilərdə Prezident İlham Əliyevin qalib gəlməsi ilə ölkəmizin yeni dövrə qədəm qoyulduğunu vurğulayıb. Bildirib ki, bu önəmli hadisələr fonunda komitə də üzərinə düşən vəzifələri layiqincə icra etməyə çalışır.

Qeyd edilib ki, ötən il ailə, qadın və uşaq məsələləri istiqamətində normativ-hüquqi bazanın gücləndirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə komitə tərəfindən 6 sənəd layihəsi hazırlanıb, 5 sənəd layihəsinə rəy və təklif verilib. Eyni zamanda, müxtəlif mövzuda 6 araşdırma və təhlil yekunlaşıb.

Bildirilib ki, ailə məsələləri istiqamətində 10 min 379 nəfərin iştirakı ilə 66 təlim, seminar və icma görüşü keçirilib, 7 sosial layihə icra edilib. B.Muradova Türkiyə ilə Azərbaycan arasında imzalanmış Fəaliyyət Planına uyğun olaraq, qardaş ölkədən dəvət olunmuş hekayəçilərin iştirakı ilə 5000-ə yaxın valideyn və uşaq auditoriyasını əhatə edən nağıl günlərinin təşkil edildiyini deyib.

Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi istiqamətində 2666 nəfərin iştirakı ilə 15 təlim və seminar, konfrans keçirilib. Həmçinin 8336 nəfər Qadın Resurs mərkəzlərinin xidmətlərindən bəhrələnib. Komitənin nəzdində fəaliyyət göstərən 11 Uşaq və Ailələrə Dəstək mərkəzlərinin fəaliyyətindən 32 min 399 nəfər yararlanıb. 2023-cü il ərzində erkən nikah hadisəsi ilə bağlı 29 fakt üzrə monitorinq-ailə səfərləri təşkil edilib, 25 erkən nikah halının qarşısı alınıb.

Diqqətə çatdırılıb ki, komitənin "Qadın Dəstək Xətti"nə 4079, "Uşaq Qaynar Xətti"nə 4453, 860- Gender əsaslı zorakılıqla bağlı Dəstək xəttinə 302 müraciət daxil olub və hər biri təmin edilib.

İclasın sonunda komitənin ötənilki fəaliyyəti nəzərə alınıb, qarşıdakı sessiya üçün iş planının layihəsi təsdiqlənib.

**XQ**

# Şarl Mişel "sülh cəngavəri" ola biləcəkmi?

(əvvəli 4-cü səhifədə)

Hər şey qarşılıqlı olmalıdır və burada onların arqumentasiyası da – yəni, "Ermənistan plyus" belə adlandıraq bu qruplaşmanı, – çox məntiqsiz idi ki, onlar 30 il bundan əvvəl qovulmuşdu, amma bunlar buradadır. Yəni ki, onlar, bərabər hüquqa malik deyillər. Halbuki, bu, faktiki olaraq rasist bir yanaşma idi. Yəni, bizim mövqeyimiz dəyişməz olaraq qalırdı, ya bu məsələ sülh müqaviləsində əks olunmur, ya da ki, hər iki nümayəndənin hüquqları və təhlükəsizliyi əks olunacaq. Danışıqların belə səmərəsiz keçməsinin də əsas səbəbi bu idi".

Bununla yanaşı, Brüssel formatı çərçivəsindəki daha bir tezis də qeyri-məqbuldur. Söhbət 1991-ci ilin Alma-Ata Bəyannaməsindən gedir. Hazırda Ermənistan rəhbərliyi durmadan həmin tezisi təkrarlayır. Elə Mişel də "Azadlıq" radiosuna müsahibəsində bunu bildirmişdi. Yuxarıdakı sitatdan da göründüyü kimi, o, sərhədlərin delimitasiyasının sülh sazişinə əsaslanmalı olduğu fikrindədir. Bu isə o deməkdir ki, Aİ Şurasının prezidenti rəsmi İrəvanın təmsilçiləri kimi, Alma-Ata Bəyannaməsini sərhədlərin müəyyənləşməsində başlıca istinad sənədi qismində görür. O da məlumdur ki, Ermənistan hakimiyyəti sözügedən bəyannaməni əsas tutmaqla, eyni zamanda, 1970-ci illərin xəritələrinə uyğun formada Azərbaycan–Ermənistan sərhədlərinin delimitasiyası və demorkasiyası məntiqini irəli sürür.

Görəsən, Ermənistan nə üçün 1970-ci illərin xəritələrini əsas götürmək istəyir? Prezident İlham Əliyevin də vurğuladığı kimi, siyasi əsaslara istinad etsək, onda istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, ya da sovetləşmə dövrü götürülməlidir. Xronoloji metodologiya ilə yanaşdıqda isə XX əsrin əvvəllərindəki xəritələr də var. "Yəni, siz 1960-cı, 1950-ci, 1940-cı illəri kənara qoyursunuz və məhz 1970-ci illərə istinad etmək istəyirsiniz. Məhz buna görə ki, bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, 1970-ci illərin xəritəsini, əsas götürmək istəyən təkcə Ermənistan deyil, onun yəni, "Ermənistan plyus" qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik", – deyən dövlətimizin başçısı onu da bildirmişdi ki, bütövlükdə, heç bir xəritə əsasında iş qurulmamalı, ekspert qrupları yaradılmalı və həmin qruplar yerləri qarış-qarış gəzib sərhədi müəyyən etməlidirlər.

Qeyd edək ki, Ş.Mişel də ötən il dekabrın 12-də verdiyi müsahibə ilə özünü "Ermənistan plyus" qruplaşmasının təmsilçisi kimi aparmışdı. O zaman bundan sonra Avropa İttifaqının Bakı – İrəvan normallaşması istiqamətində hansı yönümlü vasitəçilik edəcəyi maraq doğurmaqdadır. Üstəlik, onu da nəzərə alaq ki, Brüssel formatı kollektiv Qərbin vasitəçiliyi kontekstindədir. Mövcud kontekstdə isə ABŞ seqmenti var və hesab edirik ki, Vaşinqtonun son vaxtlar tutduğu mövqe ədalətli sayıla bilməz. Hələ biz Aİ-nin timsalında kollektiv Qərbin Fransa kimi qatı ermənipərəstini demirik. Siyahıya Aİ-nin Xarici siyasət üzrə ali nümayəndəsi Jozep Borrellin də ədalətsiz yanaşmalarını əlavə etsək, Ş.Mişel indiki durumda sanki meydanda təkdir. Meydanda tək qalan isə bir qayda olaraq, cəngavər sayılmır. Elə isə görək, cənab Mişel indiki sülh təşəbbüsü ilə obrazlı desək, cəngavərə çevrilə biləcəkmi? Əlbəttə, bunu əlahəzrət zaman göstərəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Baş prokuror Saatlıda vətəndaşları qəbul edib



**Fevralın 9-da Baş prokuror Kamran Əliyev Saatlı rayon prokurorluğunun inzibati binasında Saatlı, Sabirabad, Biləsuvar, Cəbrayıl rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 86 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

**XQ**

# Azərbaycandan Ermənistana heç bir təhlükə yoxdur

**Azərbaycan tərəfindən təhlükə mifini şişirdən Ermənistan bizim ərazi bütövlüyümüzə "de-fakto" qəsd etməkdə davam edir.**



Bu barədə "Azadlıq" radiosuna müsahibəsində Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bildirib.

RFE/RL-in müxbiri Coşua Kuçeranın Ermənistan ilə Azərbaycan arasında sülh prosesinə həsr olunmuş məqaləsində qeyd olunur ki, müxtəlif vasitəçilərə münasibətdə yaranmış etimadsızlıq səbəbindən Bakı və İrəvan son zamanlar artıq öz konkret bəhrəsini verən ikitərəfli birbaşa təmaslar formatına üstünlük verirlər. Xüsusən, ötən ilin dekabrında hər iki tərəfdən saxlanılmış şəxslərin azad olunması üzrə tərəflərin əldə etdikləri razılaşmalara və Bakıda keçirilməsi nəzərdə tutulan COP29 beynəlxalq iqlim konfransı kontekstində qarşılıqlı diplomatik dəstəyə istinad edilir.

Prezidentin köməkçisi bu kontekstdə Avropa diplomatiyasının başçısı Cozep Borrelin Azərbaycanın Ermənistana qarşı ərazi iddialarını ehtiva edən və Bakını İrəvanla substantiv danışıqlara çağıran bu yaxınlardakı bəyanatını "tamamilə cəfəng" adlandırıb.

Elçin Əmirbəyov qeyd edib: "Ermənistana guya ərazi iddialarımızla bağlı Azərbaycana qarşı irəli sürülən ittihamlar ağrımayan başa dəsmal bağlamaq kimi uğursuz və faydasız cəhddən başqa bir şey deyil. Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi sonda deyib: "Bu cür konkret faktlar çoxdur, ən azı Ermənistanın MDB-yə üzvlüyünün ratifikasiyası prosesində bu ölkənin parlamentinin qəbul etdiyi qərarları, Qarabağın Azərbaycana məxsus olmasını şübhə altına alan və ya 44 günlük müharibə bitdikdən sonra Ermənistanın Azərbaycana qarşı başlatdığı çoxsaylı məhkəmə iddialarını, ölkəmizə qarşı açıq ərazi iddiaları olan sənədləri göstərmək olar. Hələ mən Azərbaycanın Qarabağ bölgəsini tarixi Ermənistanın tərkib hissəsi kimi təqdim etməkdə davam edən Ermənistan Xarici İşlər Nazirliyinin rəsmi saytından danışmıram.

Biz yuxarıda qeyd etdiyimiz bütün narahatlıqlarımızı erməni tərəfinin diqqətinə dəfələrlə çatdırmışıq, lakin təəssüf ki, hələ də onların aradan qaldırılması üçün qarşı tərəfdən konkret addımlar atılmayıb".

# Əsgəranda Xocalı qurbanlarının kütləvi məzarlığı aşkarlanıb

**Məlum olduğu kimi, 2023-cü ilin sentyabrında keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonra Beqlaryan Raşid Aramayisi Birinci Qarabağ müharibəsi dövründə azərbaycanlı əsir-girovlara işgəncə verməkdə, eləcə də sülh və insanlıq əleyhinə, müharibə cinayətlərini törətməkdə şübhəli bilinərək saxlanılıb və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 112-ci, 113-cü, 115.2-ci, 279.1-ci və 318.1-ci maddələri ilə ittiham elan olunmaqla təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb edilib.**



Həmin şəxs ifadənin yerində yoxlanılması istintaq hərəkəti zamanı, özünün də daxil olduğu qanunsuz erməni silahlı birləşmələri tərəfindən əksəriyyəti qadın, uşaq və yaşlı insanlardan ibarət 200 nəfərədək mülki şəxsin 1992-ci il fevralın 26-da Əsgəran qalasına yaxın ərazidə pusquya salınaraq avtomat silahlardan atəş açılmaqla qətlə yetirildiyini və həlak olanların üzərilərindəki şəxsi əşyalar talan edildikdən sonra meyitlərin həmin ətrafda basdırıldığını bildirib, cinayət əməllərinin törədildiyi yerləri əyani şəkildə göstərib.

Bu barədə Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası məlumat yayıb.

Bildirilib ki, ötən ilin noyabrında Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu aidiyyəti qurumların mütəxəssis heyətinin iştirakı ilə Raşid Beqlaryanın göstərdiyi ərazidə axtarış və qazıntı işlərinə başlayıb. Hava şəraitinin əlverişsiz olması qazıntıların müvəqqəti dayandırılmasına səbəb olsa da, sonradan Əsgəran qalası ətrafında axtarış və qazıntı işləri yenidən aparılmağa başlanılıb, qazıntı prosesində Xocalı soyqırımı zamanı qətlə yetirilmiş vətəndaşlara aid olduğu ehtimal edilən 8-dən çox şəxsin meyitinin basdırıldığı kütləvi məzarlıq aşkarlanıb.

Ərazidə axtarış, qazıntı və ekshumasiya işləri davam etdirilir.

**XQ**

BEYNƏLXALQ HƏYAT

# Jurnalist Taker Karlson Qərbin siyasi elitasına qarşı

(əvvəli 1-ci səhifədə)

Amma bütün bunların son günlər söz azadlığının mücahidinə çevrilmiş amerikalı jurnalist Taker Karlsona həm dəxli yoxdur, həm də birbaşa aidiyyatı var. Bu haqda bir qədər sonra.

Taker Karlson haqqında ötən saylarımızın birində kifayət qədər geniş analitik yazı vermişdik deyə, bu yazımızda jurnalistin Rusiya Prezidenti Vladimir Putindən götürdüyü müsahibənin dünyada yaratdığı əks-sədadan və söz azadlığı "bayraqdarları"nın ona qarşı iftira və çirkablarının nədən irəli gəlməsindən danışacağıq.

Dünən haqqında söz açacağımız müsahibə elektron mediada yayımlanmamışdan əvvəl Taker Karlson onu bu addımı atmağa vadar edən məqamları mətbuata açıqlayaraq demişdir: "Aydındır ki, belə müsahibə almaq çox risklidir. Ona görə biz bir neçə ay ciddi şəkildə bu haqda düşündük. Biz bunu nəyə görə edirik?



Birincisi, bu, bizim işimizdir. Biz jurnalistika sahəsində çalışırıq və bu, bizim borcumuzdur. Bütün dünyanı dəyişən münaqişə artıq 2 ildir ki, davam edir, ancaq amerikalıların çoxunun bu haqda dürüst informasiyası yoxdur. Onların bu regionda nələrin baş verməsindən real təsəvvürü yoxdur. Ancaq onlar bunu bilmədiklərinin, çünki onlar özləri də başa düşmədən bütün bunlara görə pul ödəyirlər".

Jurnalist daha sonra deyir: "...Ukraynada münaqişə başlayandan bəri Amerika KİV-i çoxlu sayda ukraynalı ilə ünsiyyətdə olub və Zelenski ilə çoxsaylı müsahibələr yayımlayıb... Amma onun Birləşmiş Ştatlarda verdiyi müsahibələrin heç biri ənənəvi müsahibələr deyildi. Zelenskinin söylədikləri ABŞ-ın Şərqi Avropadakı münaqişəyə daha da sıx cəlb edilməsinə və bu qarşıdurmanın daha çox maliyyələşdirməsi tələblərinə köklənmiş qıcıqlandırıcı fikirlər idi.

Bu, jurnalistika deyil. Bu, hökumətin təbliğatıdır, ən çirkin təbliğatdır... İnsanları məhv etmək təbliğatı. Eyni zamanda, siyasətçilərimiz və KİV xarici ölkənin liderini sanki yeni istehlakçı brendi kimi təbliğ edirdilər. Heç bir Qərb jurnalisti bu münaqişədə iştirak edən digər ölkənin prezidentindən – Vladimir Putindən müsahibə götürməyi ağlına belə gətirməyib.

Əksər amerikalıların Putinin Ukraynaya niyə qoşun yeritdiyi və indiki məqsədləri barədə heç bir məlumatı yoxdur. Onlar onun səsini belə eşitməyiblər. Bu, doğru deyil. Amerikalıların iştirak etdikləri münaqişə haqqında hər şeyi bilmək hüququ var. Bizim də bu barədə onlara danışmağa haqqımız var, çünki biz də amerikalıyıq".

Karlson açıqlamasında cəsarətlə deyir: "Ona görə buradayıq ki, biz Birləşmiş Ştatları sevirik. Biz istəyirik ki, bizim ölkə çiçəklənmiş və azad olaraq qalsın".

Demokratiya və söz azadlığı "carçısı"olan ABŞ və bütövlükdə, Qərb haqqında müstəqil jurnalistin "azad olaraq qalsın" ifadəsini işlətməsi bizə qəribə gəlir, deyilmi? Bu, necə ola bilər, məgər Birləşmiş Ştatlar artıq azad ölkə olmaqdan uzaqlaşır? Karlson buna müsbət cavab verərək deyir: "Qərb ölkələrinin hakimiyyətləri bütün vasitələrlə çalışır ki, bu müsahibəmi başqa platformalarda senzuraya məruz qoysunlar. Onlar məhz buna çalışırlar. Çünki onlar nəzarət edə bilmədikləri informasiyalardan qorxurlar".

Bu azmış kimi, dünən X platformasından yayımlanan və təqribən, 2–3 saat ərzində 60 milyondan çox izləyici toplayan müsahibədən sonra yayılan bir çox xəbərlərdə artıq Qərbin jurnalistə qarşı kükrəyən qərəz dalğasının şahidi oluruq. "Newsweek" nəşri yazır ki, Avropa İttifaqında Putinlə müsahibəyə görə Taker Karlsona qarşı sanksiya tətbiq ediləcəyi istisna deyil. Bəzi siyasətçilər artıq keçmiş teleaparıcının Rusiya Prezidenti ilə müsahibəsinin Qərb təbliğatının "nizamı"nı pozduğuna görə müəllifi "Putinin ruporu" kimi qələmə verməyə başlayıblar. Taker Karlsonun Avropaya girişinə qadağa qoyulmasını tələb edən Belçikanın keçmiş baş naziri, hazırda Avropa Parlamentinin üzvü Qi Verhofstadt təlabini belə əsaslandırır: "Putin hərbi cinayətkar olduğundan və Aİ ona dəstək verən və kömək edən hər kəsə qarşı sanksiyalar tətbiq etdiyi üçün Avropa Xarici Fəaliyyət Xidməti Karlsonun işinə də baxmalıdır".

Əcəba, sizin siyasi elitanın nümayəndələri heç bir ölkənin tanımadığı qondarma DQR-in cinayətkar erməni rəhbərləri ilə görüşəndə nədən belə bəyanatlar vermirdiniz? Olmaya, onda Azərbaycan ərazilərini işğal altında saxlayan bu canilərı gündəmə gətirmək demokratiya təzahürü idi?!

Avropa Parlamentinin keçmiş üzvü Luis Qarikano "Newsweek"ə açıqlamasında Verhofstadtın mövqeyi ilə razılaşdığını bildirir: "O, artıq jurnalist deyil, o, sülh və təhlükəsizliyimiz üçün ən böyük təhlükə yaradan, Avropa torpağında ən iyrənc rejimin təbliğatçısıdır".

Taker Karlson öz Vətəni – "azadlıqlar ölkəsində" də ciddi qınağa və sərt ittihamlara tuş gəlib. Müsahibədən xəbər tutan ABŞ Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi deyib ki, Karlsonun Putinlə müsahibəsinə ehtiyac yoxdur. Vaçinqton rəsmisi Ağ evin amerikalı jurnalistlə Rusiya Prezidenti arasında dərc olunan müsahibədən narahat olub-olmaması sualını bu şəkildə qəzəbli cavablandırıb.

ABŞ Konqresinin Nümayəndələr Palatasının keçmiş üzvü Adam Kinzinger Karlsonu Rusiyaya səfər etdiyi üçün satqın adlandırıb. Bu cür ittihamları rədd edən jurnalist deyib: "ABŞ qarşısında niyə özümü günahkar hiss etməliyəm? Məgər mən yalnız Amerikanı sevməyə məcburam?"

ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Marjorie Teylor Qrin etiraf edib ki, Karlsonun müsahibəsi Amerika hakimiyyətinə qorxu açılayıb. Eyni zamanda o vurğulayıb ki, amerikalılar həqiqəti yalnız belə jurnalistlərdən eşidə bilərlər.

Aldığımız məlumatlar aydın göstərir ki, Qərb siyasi elitasından fərqli olaraq, Qərb mediası Rusiya liderinin müsahibəsini diqqətdən kənarda qoymayıb. Amma fərqli rakurslardan. Müsahibənin təfərrüatlarını Britaniyanın "Independent", "Guardian", "Daily Mail" və Telegraph" nəşrləri ilə yanaşı, "American New York Times", "Wall Street Journal", "Financial Times", "Forbes, "Daily Beast", "Variety", "Newsweek", "New York Post", "Hill" kimi tanınmış və nüfuzlu nəşrlər geniş şərh ediblər. Buna baxmayaraq, "CNN və "Fox News" müsahibədən sonra ilk saatlarda onun adını belə çəkməyib. Amerikanın "MSNBC" kabel kanalının köşə yazarı Frenk Fiqlyuççi isə "müsahibənin elə-belə baş tutmadığı" fikrini irəli sürərək Putinin keçmiş KQB zabiti olduğunu xatırladır. Bu ki, heç kimdən gizli bir məlumat deyil. Amma Frenk fikrinə davam edərək deyir: "O, (Putin) hər şeyi məqsədli və strategiya ilə edir. Ona görə də belə qənaətə gəlmək olar ki, o, burada nəticənin necə olacağını bilir". Köşə yazarı qısqanclıqla bildirir ki, Karlson özünü sadəcə jurnalist kimi göstərir. "Taker Karlson nə jurnalist, nə də müxbirdir, lakin o, televiziyada onlardan birinin rolunu yaxşı oynadı".

"The Washington Post" qəzeti isə daha irəli gedərək bu mövzuda amerikalı jurnalisti tənqid edən bir neçə material dərc edib. Qəzetin qeydlərindən birində deyilir: "Karlson tez-tez Kremlin Rusiyanın Ukrayna ilə müharibəsinə bağlı təbliğatını təkrarlayır, Vladimir Zelenskini tənqid edir və ABŞ-ın Ukraynaya hərbi yardımına qarşı çıxırdı".

Bununla yanaşı, nəşrin yazarları Kremlin respublikaçılarla əlaqə yaratmağa çalışdığı fikrini irəli sürürlər: "Kremlin müsahibəyə razılıq verməsi onu göstərdi ki, Putin "Amerikanın əvvəlki əzəmətini qaytaraq" ideyasının tərəfdarları arasında Respublikaçılar Partiyasının "dağıdıcı elementi" ilə əlaqələr qurmaqda maraqlıdır. Bu, həm də Kremlin Donald Trampın prezidentliyə qayıdacağına və respublikaçıların ABŞ-ın Ukraynaya hərbi yardımını dayandırmağa davam edəcəyinə ümidini əks etdirir".

Moskvanın, guya, respublikaçılarla əlaqə yaratmaq cəhdləri mövzusunu "New York Times" qəzeti də ön plana çıxarıb. Məqalənin müəllifləri müsahibədə ABŞ-ın Kiyevə yardımının göydən asılı vəziyyətdə olduğu bir vaxtda Rusiya liderinin birbaşa amerikalı mühafizəkarlara müraciət etmək istəyinin əlamətini görürlər. Nəşr, həmçinin müsahibənin ABŞ daxilində Ukrayna ilə bağlı siyasi fikir ayrılıqlarına təkan verə biləcəyini də xüsusi vurğulayır.

"İndi Respublikaçılar Partiyasında Nümayəndələr Palatasında Vladimir Putinə xidmət göstərir və "tanıdığımız biri" qarşı tərəfə keçib və Qərb jurnalistlərini tənqid edərək, "kaş Qərb jurnalistləri bura gələydilər və heç olmaya müharibə haqqında dürüst danışmağa çalışaydılar" deyə, "The Hill" Karlsonun sözlərini sitat gətirir və onun Vladimir Putinə xidmət göstərdiyini deyir.

Etiraf etmək lazımdır ki, "demokratik Qərbin" siyasi elitasından fərqli olaraq sadə insanlar, bir çox jurnalistlər və politoloqlar Taker Karlsonun bu cəsarətli addımını təqdir edir və onu dəstəkləyirlər. Məsələn, ABŞ-ın keçmiş məşhur kəşfiyyatçısı Skott Ritter Taker Karlsonun Vladimir Putinlə müsahibəsini tamaşaçılara həqiqəti açıb göstərən bomba kimi qiymətləndirib.

Skott Ritter "YouTube" platformasındakı "Müfəttişdən soruş" verilişində deyib: "Culian Assanjın nümunəsi göstərir ki, Amerika siyasəti üçün əlverişsiz mövzuları işıqlandıran yaxşı jurnalistika ölümcül nəticələrə səbəb ola bilər. Mən demirəm ki, bu, Takerin başına gələcək, məncə, Taker ABŞ-a qayıdacaq və hətta ona toxunulmayacaq. Mən onun müsahibəsinin bomba olacağını düşünürəm, o, hər şey haqqında həqiqəti üzə çıxaracaq".

Jurnalist Kleyton Morris isə ABŞ Milli Təhlükəsizlik Agentliyini keçən il Karlsonun Rusiya Prezidentindən müsahibə almağı planlaşdırdığını öyrəndikdən sonra onu izlədiyinə görə ittiham edib. "Onlar bunu istəmirdilər. [ABŞ prezidenti Joe] Bayden administrasiyası və kəşfiyyat qurumları onun belə müsahibələr verməsini istəmirdilər. Onlar onu izləyirdilər".

"Demokratik Qərb"in ağası olan və özünü kürreyi-ərzə söz azadlığının nəinki carçısı, həm də onun qatı müdafiəçisi kimi təqdim edən Birləşmiş Ştatlarda, elə Avropada siyasi elitanın, söz azadlığı hüququndan istifadə edib azad söz eşitmək hüququ olan Qərb vətəndaşlarına fərqli baxışdan fərqli və əslində, obyektiv və qərəzsiz informasiya çatdırmağa çalışan jurnalisti bu şəkildə təqib və təhdid etməsi utancvericidir desəm, bu, çox zəif bir ifadə olar. Çünki müstəqilliyimizin 30 ildən yuxarı bir dövründə söz azadlığı ilə bağlı Qərbdən Azərbaycanın ünvanına daim qınaq və böhtan eşitmişik. Elə indi də bu böhtanları az eşitmirik.

Azad və demokratik seçki keçirmişik, üstümüzə çamur və çirkab atıb belə "azad seçkilərin Qərbdə qəbul edilmədiyini", az qala, gözümüzə soxublar. Haqqımıza, hüququmuza kor olub, erməni işğalını dəstəkləyiblər və indi də "zavallı ermənilər" üçün göz yaşı tökürlər. Yüzlərlə şəhər və kəndimizi vəhşicəsinə dağıdan erməni vandalizmi haqqında söz düşəndə ağızlarına qıfıl vurub gerçək mənzərəni gözardı edərək gediblər.

İndi Qərb siyasi elitasına üz tutub soruşmaq istərdim: Ay demokratlar, nədən bircə jurnalistin müsahibəsi sizi bu qədər qorxuya salıb? Əcəba, azad söz aşiqisinizsə, azad sözü niyə məhkum etməyə çalışırsınız? Olmaya, paxırınız açılır deyə, qəzəbinizi cilovlaya bilmirsiniz?!

***İlqar RÜSTƏMOV***
**XQ**

## "Xalq qəzeti" əməkdaşının yubileyi



**Dünən Azərbaycan Mətbuat Şurasında "Xalq qəzeti"nin əməkdaşı Zərifə Bəşirqızı Hüseynovanın anadan olmasının 70 illiyi münasibətilə yubiley mərasimi keçirildi.**

Məclisi giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid bildirdi ki, həmkarları və oxucu auditoriyası Zərifə Bəşirqızını istedadı, məsuliyyəti və fədakarlığı ilə peşəkar jurnalistikamıza xidmət edən qələm sahibi kimi tanıyır. Onun 47 illik




peşə fəaliyyəti ölkənin 2 nüfuzlu yaradıcı kollektivi ilə bağlı olub: 1977-ci ildə BDU-nun jurnalistika fakültəsini bitirəndən sonra 19 il keçmiş "Yazıçı" nəşriyyatında redaktor və böyük redaktor vəzifələrində çalışıb, 28 ildir ki, "Xalq qəzeti"nin müxbiridir. Məhsuldar yaradıcılıq yolu keçən jurnalist 100-dən artıq kitabın redaktoru, minədək müxtəlif janrlı yazının müəllifidir. Ölkənin tanınmış qadınları barədə "Adın şərəflidir" silsiləsindən çap etdirdiyi yazılar ona xüsusi populyarlıq gətirib.

"Xalq qəzeti"nin baş redaktoru, Mətbuat Şurası idarə heyətinin üzvü Əflatun Amaşov redaksiyanın aparıcı yazarlarından olan Zərifə Bəşirqızının yetkin fəaliyyəti ilə gənc əməkdaşlara nümunə olduğunu bildirdi. Pandemiya dövründə onun çoxsaylı informativ və maarifləndirici yazıları ilə bu bəşəri bəlaya qarşı ardıcıl mübarizəsinin önəmini, sosial mövzuda yazılarının böyük maraqla qarşılandığını qeyd etdi.

Milli Məclisin deputatı Aydın Hüseynov, AMŞ-nin Ahıl Jurnalistlər Məclisinin sədri, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu, Əməkdar jurnalistlər Zemfira Məhərrəmli, Telli Pənahqızı, Flora Xəlilzadə, Mustafa Çəmənli, Şəmsiyyə Kərimova, İttifaq Mirzəbəyli, Əntiqə Qonaq, filologiya üzrə fəlsəfə doktoru Amalya Qasımova, "Xalq qəzeti"nin əməkdaşı İlqar Həsənov, şair-publisist Əkbər Qoşalı, yubilyarın tələbə yoldaşı Qəşəngi Əliyeva və digər çıxış edənlər də Zərifə Bəşirqızının yüksək peşəkarlığından və mənəvi-əxlaqi dəyərlərə bağlılığından söz açdılar.

Sonda çıxış edən Zərifə Bəşirqızı qədirbilənliyə və xoş sözlərə görə toplantı iştirakçılarına təşəkkürünü bildirdi, bundan sonra da milli jurnalistikamıza yorulmadan xidmət edəcəyini söylədi.

**T.RÜSTƏMLİ,**
**XQ**

## Rustavidə atışma

**Dünən Gürcüstanın Rustavi şəhərindəki "İstanbul bazar" adlanan ərazidə silahlı insident baş verib. 1988-ci il təvəllüdlü şəxs bazarda adamlara atəş açıb, nəticədə, 4 nəfər həlak olub, bir nəfər yaralanıb.**

Məlumata əsasən, ölənlərdən biri cinayəti törədən şəxsin əmisi olub. O, əmisini ona nisyə ət verməməsi, taksi sürücüsünü isə onu ərazidən uzaqlaşdırmaq istəməməsi səbəbindən öldürüb. Digər iki nəfər isə pərakəndə atəş nəticəsində həlak olub. Yaralanan gənc isə cinayətkarın əmisi oğludur.

Polis əməkdaşları atəş açan şəxsi hadisə yerində həbs ediblər.

Əraziyə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunub və araşdırma davam etdirilir.

***XQ***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

avtotexnikalar, gəmilər və digər texniki vasitələr üçün yanacaq, hava və sair süzgəclərinin (filtrlərin) satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 20 fevral 2024-cü il saat 17:00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3704).

Ünvan – AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun tabeliyindəki idarələrə tələb olunan dəniz təyinatlı akkumulyatorların satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il fevralın 15-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1263.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Salyan–Aqrotexservis" ASC səhmdarlarının nəzərinə!

28 mart 2024-cü il saat 12.00-da səhmdarların illik ümumi yığıncağı keçiriləcəkdir.

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon – (070) 660-77-46.

Ünvan – Salyan rayonu, Plastmas massivi, 20 Yanvar küçəsi 116.

İdarə heyəti

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

## QƏRAR

**№ 3-27/3-7-18/2023**
**Bakı şəhəri 21 dekabr 2023-cü il**

**“Rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəriciləri”nin təsdiq edilməsi haqqında**

“Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununun 33.1.5-ci və 34.1.2-ci maddələrinə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 3.0.40-cı yarımbəndinə uyğun olaraq, bu Əsasnamənin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. “Rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəriciləri” təsdiq edilsin (əlavə olunur).
2. Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

**Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 21 dekabr tarixli 3-27/3-7-18/2023 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

**Rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəriciləri**

### 1. Ümumi müddəalar

1.1. “Rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəriciləri” (bundan sonra – Sənəd) “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununun 33.1.5-ci və 34.1.2-ci maddələrinə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 3.0.40-cı yarımbəndinə əsasən hazırlanmışdır.

1.2. Bu Sənəd rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətləri, o cümlədən internet xidmətləri üzrə keyfiyyət göstəricilərini müəyyən edir.

1.3. Rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəriciləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyənləşdirilmiş hədlərdə müvafiq beynəlxalq standartlara, Beynəlxalq Telekommunikasiya İttifaqı, Avropa Telekommunikasiya Standartları İnstitutunun tövsiyələrinə uyğun hazırlanmışdır.

### 2. Əsas anlayışlar

2.1. Bu Sənəddə istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **xidmət keyfiyyəti** – rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin istifadəçisinin ehtiyaclarını ödəmək qabiliyyətinə əsaslanan xüsusiyyətlərin məcmusu;

2.1.2. **xidmət keyfiyyəti göstəricisi** – xidmət keyfiyyətinin ölçülə bilən dəyəri.

2.2. Bu Sənəddə istifadə olunan digər anlayışlar “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən olunmuş mənaları ifadə edir.

### 3. Məqsədlər

3.1. Bu Sənədin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

3.1.1. xidmət keyfiyyəti göstəricilərinin başa düşülən və tətbiq oluna bilən olması;

3.1.2. xidmət keyfiyyəti üzrə məlumatların yetərli, təfərrüatlı, müqayisə oluna biləcək və əlçatan olması;

3.1.3. xidmət keyfiyyəti göstəricilərinin eyni xidmət üzrə bütün bazar iştirakçıları üçün eyni olması;

3.1.4. xidmət keyfiyyətinin dəyişən şərtlər çərçivəsində beynəlxalq standartlara uyğun olması;

3.1.5. rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətləri istifadəçilərinin maraqlarının qorunması, müştəri məmnuniyyətinin artırılması;

3.1.6. eyni mövqedə olan istifadəçilər arasında ayrı-seçkiliyə yol verilməməsi, eyni xidmətin eyni mövqedə olan istifadəçilərə eyni xidmət keyfiyyəti səviyyəsində təqdim edilməsi;

3.1.7. xidmət keyfiyyətinin inkişafında ixtisaslaşdırılmış təcili yardım xidməti ilə əlaqənin təmin edilməsi və əlilliyi olan şəxslərin ehtiyacı kimi xüsusi hallara diqqət edilməsi;

3.1.8. xidmət keyfiyyətinin ölçülməsi yolu ilə xidmətlərin göstərilməsində çatışmazlıqların müəyyən edilməsi və onların aradan qaldırılması üzrə müvafiq tədbirlərin görülməsi;

3.1.9. xidmət keyfiyyətinin tələb olunan səviyyədən yuxarı olmasının təmin edilməsi;

3.1.10. istifadəçinin rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətləri, o cümlədən internet xidmətlərini və həmin xidmətləri təqdim edən sahibkarlıq subyektini sərbəst və məlumatlı şəkildə seçməsinin təmin edilməsi üçün xidmət keyfiyyəti haqqında məlumatların şəffaf və əlçatan olması;

3.1.11. rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətləri, o cümlədən internet xidmətlərini təqdim edən sahibkarlıq subyektlərinin xidmət keyfiyyəti barədə reklam məlumatlarının dəqiqliyinə nail olunması;

3.1.12. rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlər, o cümlədən internet xidmətləri bazarlarında mövcud vəziyyətin təhlil edilməsi;

3.1.13. rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətləri, o cümlədən internet xidmətlərini təqdim edən sahibkarlıq subyektləri arasında sağlam rəqabət mühitinin yaradılması və qorunması.

### 4. Əsas prinsiplər

4.1. Xidmət keyfiyyətinin əsas prinsipləri aşağıdakılardır:

4.1.1. operativlik – rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərə, o cümlədən internet xidmətlərinə qoşulmaq üçün müraciət olunduqdan sonra xidmət təqdim edən sahibkarlıq subyektlərinin operativ şəkildə xidmətə qoşulmanı təmin etməsi üçün müddətin müəyyən olunması;

4.1.2. dəqiqlik – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra - Nazirlik) təqdim olunan və ya yayımlanan məlumatın dəqiq olması;

4.1.3. dayanıqlılıq – rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətləri, o cümlədən internet xidmətlərini təqdim edən sahibkarlıq subyektlərinin xidmətlərin dayanıqlı və fasiləsiz işləməsinə əmin olması;

4.1.4. əlçatanlıq – rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətləri, o cümlədən internet xidmətlərini təqdim edən sahibkarlıq subyektləri tərəfindən coğrafi ərazi, qiymət və sair amillərdən asılı olmayaraq, məlumatlardan və xidmətlərdən istifadə etmək imkanının təmin edilməsi;

4.1.5. şəffaflıq – rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətləri, o cümlədən internet xidmətlərini təqdim edən sahibkarlıq subyektləri tərəfindən həyata keçirilən əməliyyatların şəffaf və hesabatlı olması;

4.1.6. ayrı-seçkiliyin olmaması – rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətləri, o cümlədən internet xidmətlərini təqdim edən sahibkarlıq subyektlərinin bütün istifadəçilərə eyni şərtlərlə və eyni keyfiyyətlə xidmət göstərməsi;

4.1.7. etibarlılıq – xidmət keyfiyyəti barədə təqdim olunan məlumatın dəqiq olması və bu məlumat mənbəyinin təsdiq olunması;

4.1.8. informasiyanın tamlığı – xidmət keyfiyyəti barədə informasiyanın dəqiq, dolğun, hərtərəfli və bütöv olması;

4.1.9. məsuliyyətlilik – xidmət keyfiyyəti göstəricilərinə riayət olunması, eləcə də xidmətlərin keyfiyyət gostəricilərinin dəyərinin tələblərə uyğun və ya ondan yuxarı səviyyədə olmasının təmin edilməsi;

4.1.10. konfidensiallıq – xidmət keyfiyyəti barədə proseslərdə yalnız müqavilə tərəfi olan istifadəçilərin məlumatlılığının təmin edilməsi;

4.1.11. təhlükəsizlik – informasiyanın tamlığının, əlçatanlığının, konfidensiallığının və mötəbərliliyinin mühafizə edilməsi.

### 5. Telefon (məftilli) rabitə xidmətləri üzrə xidmət keyfiyyət göstəriciləri

| № | Xidmət keyfiyyət göstəricisi | Ölçmə metodologiyası (formulası) | Ölçmə mənbəyi | Qeyd | Ölçü vahidi | Hədəf |
|---|---|---|---|---|---|---|
| 5.1. | **Xidmətə qoşulma müddəti** (Mean service provisioning time) - potensial istifadəçinin xidmətə qoşulmaq üçün müraciət anı ilə xidmət təqdim edən sahibkarlıq subyektinin xidmət üçün lazım olan vasitələri təmin etməsi anı arasındakı müddət. | Xidmətə qoşulma müddətlərinin riyazi ortası | Fakturalama sistemi (billing) | - | gün | ≤ 6 |
| 5.2. | **Zəngin tamamlanma dərəcəsi** (Call Completion Rate) - zənglərin müvəffəqiyyətlə sonlandırılma nisbəti. | ((məqsədyönlü şəkildə sonlandırılmış zənglərin sayı) / (uğurlu şəkildə baş tutmuş zəng cəhdləri))*100 | OSS | Ölkədaxili | % | ≥ 99 |
| | | | | Beynəlxalq | | ≥ 98 |
| 5.3. | **Zəngin baştutma müddəti** (Call setup time) səsli zəngin qurulması vaxtı tam ünvan məlumatının göndərilməsi ilə zəngin qurulması bildirişinin qəbulu arasındakı müddəti. | T(zəng edən tərəfindən çağırış siqnalının eşidilmə anı) - T(zəng edən tərəfin zəngi başlatma anı) | OSS | Ölkədaxili (məftillidən məftilliyə) | saniyə | ≤ 3 |
| | | | | Beynəlxalq | | ≤ 7 |
| 5.4. | **İşlək vəziyyətdə olan taksofonların sayının faiz nisbəti** - işlək vəziyyətdə olan taksofonların sayının bütün taksafonların sayına olan nisbəti. | (İşlək vəziyyətdə olan taksofonların sayı / bütün taksafonların sayı) *100 | OSS | - | % | ≥ 95 |
| 5.5. | **Orta bərpa vaxtı** (Mean time to restore) - xidmətin əlçatan olmayan vaxt intervallarının orta müddəti. | Xidmətin əlçatan olmayan vaxt intervallarının riyazi ortası | OSS | Mis kabel | saat | ≤ 72 |
| | | | | Optik kabel | | ≤ 24 |
| 5.6. | **Zədələnmə səviyyəsi** (Failure rate) - müəyyən vaxt vahidi üçün zədələnmələrin orta sayının nisbəti. | Ay ərzində 100 abunəçiyə düşən zədə sayı | OSS | - | % | ≤ 2.2 |
| 5.7. | **Bərpa səviyyəsi** (Restoration rate) - müəyyən vaxt ərzində zədəli vəziyyətdən işlək vəziyyətə keçidlərin orta sayının nisbəti. | Abunəçi zədələrinin həmin gün aradan qaldırılması | OSS | - | % | ≥ 90 |
| | | Abunəçi zədələrinin növbəti gün aradan qaldırılması | | | | ≥ 95 |
| | | Abunəçi zədələrinin 3 gün ərzində aradan qaldırılması | | | | ≥ 99 |

### 6. Sellülar (mobil) rabitə xidmətləri üzrə xidmət keyfiyyət göstəriciləri

| № | Xidmət keyfiyyət göstəricisi | Ölçmə metodologiyası (formulası) | Ölçmə mənbəyi | Qeyd | Ölçü vahidi | Hədəf |
|---|---|---|---|---|---|---|
| 6.1. | **Xidmətə qoşulma müddəti** (Mean service provisioning time) - potensial istifadəçinin xidmətə qoşulmaq üçün müraciət anı ilə xidmət təqdim edən sahibkarlıq subyektinin xidmət üçün lazım olan vasitələri təmin etməsi anı arasındakı müddət. | Xidmətə qoşulma müddətlərinin riyazi ortası | Fakturalama sistemi (billing) | Əvvəlcədən ödəniş (PrePaid) | dəqiqə | ≤10 |
| | | | | Sonradan ödəniş (PostPaid) | | ≤60 |
| 6.2. | Şəbəkənin əhatə dairəsi (Coverage) - Mobil cihazlara zəng etmə və zəng qəbul etmə, SMS göndərmə və qəbul etmə, internet bağlantısı imkanı yaradacaq səviyyədə əhali və coğrafi əhatə faizi. | Əhatə faizinin gəzinti və ya nəqliyyat vasitəsilə testi | Gəzinti və ya nəqliyyat vasitəsilə test | 2G (-102 dBm) əhali | % | ≥ 99.5 |
| | | | | 2G (-102 dBm) coğrafi | | ≥ 90.0 |
| | | | | 3G (-105 dBm) əhali | | ≥ 99.5 |
| | | | | 3G (-105 dBm) coğrafi | | ≥ 85.0 |
| | | | | 4G (-118 dBm) əhali | | ≥ 99.5 |
| | | | | 4G (-118 dBm) coğrafi | | ≥ 75.0 |
| 6.3. | **Sell əlçatanlığı** (Cell availability) - sellin əlçatan hesab edildiyi vaxtın faiz nisbəti. | ((Ölçmə müddəti – Sellin işlək olmadığı müddət) / ölçmə müddəti)) *100 | OSS | 2G | % | ≥ 99.5 |
| | | | | 3G | | ≥ 99.5 |
| | | | | 4G | | ≥ 99.5 |
| 6.4. | **Zəngin baştutma müddəti** (Call setup time) səsli zəngin qurulması vaxtı tam ünvan məlumatının göndərilməsi ilə zəngin qurulması bildirişinin qəbulu arasındakı müddəti. | T(zəng edən tərəfindən çağırış siqnalının eşidilmə anı) - T(zəng edən tərəfin zəngi başlatma anı) | OSS və gəzinti və ya nəqliyyat vasitəsilə test | 2G və 3G (ikili rejim) | saniyə | ≤ 7 |
| | | | | CSFB | | ≤ 9 |
| | | | | 4G(VoLTE) | | ≤ 3 |
| 6.5. | **Prosesdə olan danışıqların kəsilmə səviyyəsi** (Call drop rate) - trafik kanalına uğurla daxil olan (aktiv danışıq), sonradan radio bağlantısının itirilməsi nəticəsində kəsintiyə məruz qalan mobil zənglərin nisbəti. | ((kəsilmiş trafik kanallarının sayı) / (uğurlu şəkildə əldə olunan trafik kanallarının sayı)) * 100% | OSS və gəzinti və ya nəqliyyat vasitəsilə test | 2G | % | ≤ 2 |
| | | | | 3G | | ≤ 2 |
| | | | | 4G (VoLTE) | | ≤ 2 |
| 6.6. | **Danışıq üçün GERAN/UTRAN/LTE xidmətlərinə girişlərin müvəffəqiyyət səviyyəsi** (Call setup success rate) - şəbəkə üçün bütün uğurlu danışıq cəhdlərinin toplam cəhdlərə nisbəti. | ((uğurlu şəkildə əldə olunan trafik kanallarının sayı) / (trafik kanallarının əldə edilməsi cəhdlərinin toplam sayı)) * 100% | OSS | 2G (SDCCH nəzərə alınmaqla) | % | ≥ 98 |
| | | | | 3G | | ≥ 98 |
| | | | | CSFB | | ≥ 98 |
| 6.7. | **Orta başa düşülmə** (danışıq) keyfiyyəti (Speech quality) - mobil telefon xidmətində səsin əvvəldən sona qədər olan bağlantı (transmissiya) ilə başa düşülmə keyfiyyətini əks etdirən göstərici. | MOS şkalası ilə (5=əla, 4=yaxşı, 3=kafi, 2=zəif, 1=pis) ölçülür. | Gəzinti və ya nəqliyyat vasitəsilə test | 2G | - | ≥ 3.0 |
| | | | | 3G | | ≥ 3.5 |
| | | | | 4G (VoLTE) | | ≥ 4.5 |
| 6.8. | **SMS uğursuzluq səviyyəsi** (SMS completion failure rate) - bir abunəçidən digər abunəçiyə göndərilən və qəbul edilən uğursuz ismarıcların (təkrarlanan və zədələnmiş ismarıclar istisna) faiz nisbəti. | (1- (Uğurlu qəbul edilən bütün ismarıclar / Göndərilən bütün ismarıclar)) *100 | OSS | 24 saat müddətində | % | ≤ 5 |
| 6.9. | **EDGE texnologiyası üzərindən data endirmə sürəti** (EDGE downlink throughput) | Telefona endirilən məlumatlar (Kbit) / (məlumat endirilməsinin bitdiyi an - məlumat endirilməsinə başlanan an)[saniyə]) | OSS və gəzinti və ya nəqliyyat vasitəsilə test | pik saatlarında | Kbit/s | ≥ 120 |
| 6.10. | **UTRAN PDP kontekst aktivləşmə müvəffəqiyyət səviyyəsi** (UTRAN PDP context activation success rate) | (uğurlu PDP aktivləşdirilmə sayları / bütün PDP aktivləşdirmə cəhdləri) *100 | OSS | - | % | ≥ 98 |
| 6.11. | **3G data endirmə sürəti** (3G DL throughput) | Telefona endirilən məlumatlar (Kbit) / (məlumat endirilməsinin bitdiyi an - məlumat endirilməsinə başlanan an)[saniyə]) | OSS və gəzinti və ya nəqliyyat vasitəsilə test | pik saatlarında | Kbit/s | ≥ 2500 |
| 6.12. | **3G data yükləmə sürəti** (3G UL throughput) | Telefondan yüklənən məlumatlar (Kbit)/ (məlumat yükləmənin bitdiyi an - məlumat yükləməsinə başlanan an) [saniyə] | OSS və gəzinti və ya nəqliyyat vasitəsilə test | pik saatlarında | Kbit/s | ≥ 250 |
| 6.13. | **Uğurla qurulmuş ilkin E- RAB-ların faiz nisbəti** (Initial E-RAB establishment success rate) | ((uğurlu şəkildə qurulmuş E-RAB kanalları) / (E-RAB kanalları qurulma cəhdləri)) *100 | OSS və gəzinti və ya nəqliyyat vasitəsilə test | VoLTE (pik saatlarında) | % | ≥ 99.5 |
| | | | | Data (pik saatlarında) | % | ≥ 99.5 |
| 6.14. | **LTE data endirmə sürəti** (LTE DL throughput) | Telefona endirilən məlumatlar (Kbit)/ (məlumat endirilməsinin bitdiyi an - məlumat endirilməsinə başlanan an) [saniyə] | OSS və gəzinti və ya nəqliyyat vasitəsilə test | pik saatlarında | Kbit/s | ≥ 10000 |
| 6.15. | **LTE data yükləmə sürəti** (LTE UL throughput) | Telefondan yüklənən məlumatlar (Kbit)/ (məlumat yükləmənin bitdiyi an - məlumat yükləməsinə başlanan an) [saniyə] | OSS və gəzinti və ya nəqliyyat vasitəsilə test | pik saatlarında | Kbit/s | ≥ 5000 |
| 6.16. | **Endirmə zamanı gecikmə** (Downlink latency) - Datanın yükləmə - endirmə zamanı paketin mənbədən təyinat məntəqəsinə və geriyə getməsi üçün tələb olunan vaxt | T (paketin qəbul olunduğu an) - T (paketin göndərildiyi an) | OSS və gəzinti və ya nəqliyyat vasitəsilə test | 3G | ms | ≤ 50 |
| | | | | 4G | ms | ≤ 20 |
| 6.17. | **Paketlərdə itki səviyyəsi** (Packet (error) loss rate) –şəbəkə vasitəsilə çatdırıla bilməyən paketlərin ümumi sayının müəyyən bir vaxt pəncərəsində ötürülən paketlərin ümumi sayına nisbəti | ((çatdırıla bilməyən paketlərin ümumi sayı) / (ötürülən paketlərin ümumi sayı)) *100 | OSS və gəzinti və ya nəqliyyat vasitəsilə test | 3G | % | ≤ 1 |
| | | | | 4G | % | ≤ 0.1 |

### 7. İnternet xidmətləri üzrə xidmət keyfiyyət göstəriciləri

| № | Xidmət keyfiyyət göstəricisi | Ölçmə metodologiyası (formulası) | Ölçmə mənbəyi | Qeyd | Ölçü vahidi | Hədəf |
|---|---|---|---|---|---|---|
| 7.1. | **Xidmətə qoşulma müddəti** (Mean service provisioning time) - potensial istifadəçinin xidmətə qoşulmaq üçün müraciət anı ilə xidmət təqdim edən sahibkarlıq subyektinin xidmət üçün lazım olan vasitələri təmin etməsi anı arasındakı müddət | Xidmətə qoşulma müddətlərinin riyazi ortası | Fakturalama sistemi (billing) | - | gün | ≤ 6 |
| 7.2. | **Fakturalanmış yükləmə qabiliyyəti** (Percentage of invoiced bandwidth, uplink) – HTTP və FTP fakturalanmış yükləmə qabiliyyəti | (aktual yükləmə qabiliyyəti / fakturalanmış yükləmə qabiliyyəti)*100 | OSS | Trafikin pik saatları üçün orta dəyər əsas götürülür. | % | ≥ 75 |
| 7.3. | **Fakturalanmış endirmə qabiliyyəti** (Percentage of invoiced bandwidth, downlink) - HTTP və FTP fakturalanmış endirmə qabiliyyəti | (aktual endirmə qabiliyyəti/ fakturalanmış endirmə qabiliyyəti) *100 | OSS | Trafikin pik saatları üçün orta dəyər əsas götürülür. | % | ≥ 75 |
| 7.4. | **İP paket itkisi** (IP packet loss ratio) - Sınaq IP paket itkisi nisbəti ümumi itirilmiş IP paket nəticələrinin hər sınaq (yaxud sub-interval) zamanı itirilmiş və uğurlu IP paket nəticələrinin cəminə nisbəti | ((çatdırıla bilməyən paketlərin toplam sayı) / (ötürülən paketlərin ümumi sayı))*100 | OSS | - | % | ≤ 1 |
| 7.5. | **Jitter** – müəyyən bir zaman aralığında maksimum gecikmə ilə minimum gecikmə arasındakı fərq | IPTDmax - IPTDmin | OSS | - | milli saniyə | ≤ 30 |
| 7.6. | **Datanın yükləmə-endirmə zamanı** (Round trip time) - paketin mənbədən təyinat nöqtəsinə və geriyə qayıtması üçün tələb olunan vaxt | T(paketin qəbul olunduğu an) – T(paketin göndərildiyi an) | OSS | Ölkədaxili | milli saniyə | ≤ 85 |
| | | | | Beynəlxalq | | ≤ 300 |
| 7.7. | **Orta Bərpa Vaxtı** (Mean time to restore) - xidmətin əlçatan olmayan vaxt intervallarının orta müddəti | Xidmətin əlçatan olmayan vaxt intervallarının riyazi ortası | OSS | Mis kabel | saat | ≤ 72 |
| | | | | Optik kabel | | ≤ 24 |
| 7.8. | **Zədələnmə səviyyəsi** (Failure rate) - müəyyən vaxt vahidi üçün zədələnmələrin orta sayının nisbəti | Ay ərzində 100 abunəçiyə düşən zədə sayı | OSS | - | % | ≤ 2.2 |
| 7.9. | **Bərpa səviyyəsi** (Restoration rate) - müəyyən vaxt ərzində zədəli vəziyyətdən işlək vəziyyətə keçidlərin orta sayının nisbəti | Abunəçi zədələrinin həmin gün aradan qaldırılması | OSS | - | % | ≥ 90 |
| | | Abunəçi zədələrinin növbəti gün aradan qaldırılması | | | | ≥ 95 |
| | | Abunəçi zədələrinin 3 gün ərzində aradan qaldırılması | | | | ≥ 99 |

### 8. Telefon (məftilli), sellülar (mobil) rabitə, eləcə də internet xidmətləri üzrə müştəri xidmətlərinə dair xidmət keyfiyyət göstəriciləri

| № | Xidmət keyfiyyət göstəricisi | Ölçmə metodologiyası (formulası) | Ölçmə mənbəyi | Qeyd | Ölçü vahidi | Hədəf |
|---|---|---|---|---|---|---|
| 8.1. | **Çağrı mərkəzinin cavab müddəti** (Response time of the commercial desk) | 20 saniyə ərzində cavablandırılan zənglərin ümumi zənglərin sayına olan nisbəti | Çağrı mərkəzinin sistemi | - | % | ≥ 95 |
| 8.2. | **Şikayətlərin aradan qaldırılma müddəti** (Customer complaints resolution time) - şikayətin qəbul edildiyi andan problemin aradan qaldırıldığı ana qədər olan müddət | Xidmət təqdim edən sahibkarlıq subyektinin hədəf müddəti çərçivəsində həll olunan şikayətlərin faiz nisbəti | Çağrı mərkəzinin sistemi | - | % | ≥ 99 |
| 8.3. | **Əsas menyuda sərf edilən müddət** | Səsli cavabvermə sisteminin (Interactive voice response) əsas menyusunun cəmi müddəti | Çağrı mərkəzinin sistemi | - | saniyə | ≤ 40 |
| 8.4. | **Alt menyuda sərf edilən müddət** | Səsli cavabvermə sisteminin (Interactive voice response) alt menyusunda çağrı mərkəzindəki lazım olan şəxsə bağlanma seçiminin təqdim edildiyi ana qədər sərf edilən müddət | Çağrı mərkəzinin sistemi | - | saniyə | ≤ 20 |
| 8.5. | **İstehlakçı şikayəti sıxlığı** | ((aylıq cəmi şikayət sayı) / (ümumi abunəçi sayı))*100 | Çağrı mərkəzinin sistemi | xidmət təchizatı ilə bağlı | % | < 5 |
| | | | | hesab-faktura ilə bağlı | | < 1 |
| | | | | sorğu xidməti ilə bağlı | | < 5 |
| | | | | şəbəkə keyfiyyəti, etibarlılığı və əlçatanlığı ilə bağlı | | < 5 |
| 8.6. | **Əvvəlcədən ödəniş (PrePaid) abunəçilərdə balans şikayətlərinin səviyyəsi** | (əvvəlcədən ödəniş (PrePaid) abunəçilərinin balans şikayətləri / əvvəlcədən ödəniş (PrePaid) abunəçilərinin ümumi sayı ) * 100 | Çağrı mər-kəzinin sistemi | - | % | ≤ 1 |

### AKRONİMLƏR VƏ QISALTMALAR

**2G** - (Second generation mobile network technology) - İkinci nəsil mobil şəbəkə texnologiyası
**3G** - (Third generation mobile network technology) - Üçüncü nəsil mobil şəbəkə texnologiyası
**4G** - (Fourth generation mobile network technology) - Dördüncü nəsil mobil şəbəkə texnologiyası
**CSFB** - (Circuit Switched Fallback) - Paket komutasiyasından kanal komutasiyasına geri qayıdış
**CSSR -** (Call Setup Success rate) - Zəngin baş tutma səviyyəsi
**DL** - (Download) - Endirmə
**dBm** – desibel-millivat
**EDGE** - (Enhanced data rate for GSM evolution) - GSM təkamülü üçün təkmilləşdirilmiş məlumat sürəti
**E-RAB** - (E-UTRAN Radio access bearer) - E-UTRAN radio şəbəkə daşıyıcısı
**E-UTRAN** - (Evolved- UMTS Terrestrial Radio Access Network) - Təkmilləşdirilmiş UTRAN
**FTP** - (File transfer protokol) - Fayl ötürmə protokolu
**GERAN** - (GSM and EDGE radio access network) - GSM və EDGE radio giriş şəbəkəsi
**GSM** - (Global System for Mobile communication) - Mobil kommunikasiya üçün qlobal sistem
**HTTP** (Hypertext transfer protocol) - Bağlantılı mətn ötürmə protokolu
**IP** - (Internet protocol) - İnternet protokol
**IPTDmax** - (Maximum IP time delay) - Maksimum IP vaxt gecikməsi
**IPTDmin** - (Minimum IP time delay) - Minumum IP vaxt gecikməsi
**Kbit** - Kilobit
**Kbit/s** - Kilobit/saniyə
**LTE** - (Long-Term Evolution) - Uzunmüddətli İnkişaf
**MOS** - (Mean opinion score) - Orta başa düşülmə
**OSS** - (Operation Support System) - İstismara dəstək informasiya Sistemi
**PDP** - (Packet data protocol) - Paket data protokolu
**RAB** - (Radio access bearer) - Radio şəbəkə giriş daşıyıcısı
**SDCCH** - (Standalone Dedicated Control Channel) - Müstəqil ayrılmış nəzarət kanalı
**SMS** - (Short message services) - Qısa ismarıc xidməti
**T** - (Time) – vaxt
**UL** - (Upload) - Yükləmə
**UMTS** - (Universal Mobile Telecommunications Service) - Universal mobil telekommunikasiya xidmətləri
**UTRAN** - (UMTS terrestrial radio access network) - UMTS yerüstü radio giriş şəbəkəsi
**VoLTE** - (Voice over LTE) - LTE şəbəkəsi üzərində səsli zəng xidməti

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 29 (30433) 10 fevral 2024-cü il, şənbə

# Kiçik çillənin ömrü azdı, qabaqda yazdı...

## Qarabağda deyərdilər: Novruzdan sonra 40 kötük yandırırlar



**Uzun qış gecələrində nənələrimiz, babalarımız nəvələrinə bu sözlərlə başlanan nağıllar danışardılar. Ocağın istisi vurduqca nağıla qulaq asan nəvələr yavaş-yavaş yuxuya gedər, nənələrin-babaların üzünə xoş təbəssüm qonardı...**

Yaydan tədarük olunan kötük və yarmaçalar şaxtalı-sazaqlı qış gecələri üçün odun-ocaq ehtiyatıdır. Onların hər birinin istisinə bir gecəni səhər etmişik, mışıl-mışıl yatan körpələr neçə-neçə nağıllara qulaq kəsiliblər.

Gurhagur yanan sobaya qoyulan ağac kötükləri evlərə hərarət və istilik bəxş edib. Hər kötüyü bir qış gecəsini yola verərək bizi isti sobanın ətrafına yığan odun yığnaqları böyük çiləni kiçik çilləyə qədər gətirib çıxarıb.

El təqviminə görə indi qışın ən sərt vaxtıdır. "Toyuqları hində, gəlinlərin əlini xəmir təknəsində, atın qulununu bətnində" donduran, hamını isti ocağın başına toplayan kiçik çillə "boz ay"a doğru addımlayır. Hələ isti sobanın ətrafı daha bir müddət hamını başına yığacaq.

Kiçik çillə çıxandan sonra Novruz tonqalları yanmağa başlayacaq. Deyərlər ki, çillənin ömrü azdı, qabağı yazdı. Qədim bir el sözündə deyilir ki, Novruzdan sonra 40 kötük gərəkdir. Deməli, təqvimdən qopan vərəqlər bizi yaza yaxınlaşdırsa da, soyuq keçən günlərdə kötük hələ gərəkli olaraq qalır...

Uzaq dağ kəndində sobaya qoyulan kötük təkcə otağa, evə deyil, qəlbimizə də hərarət və istilik gətirir. Uzun həsrətdən sonra işğaldan azad olunan yurd yerlərində ocaqlarımız təzədən şölələnəcək. Bu dəfə yanan ocaqlarımızı heç kəs söndürə bilməyəcək. İstisinə yığışdığımız kötük və yarmaçalar çırthaçırt yanaraq şirin bir qış nağılı danışacaq...

***Süleyman QARADAĞLI,***
***yazıçı-publisist***

# İlk türk astronavtın uçuşu başa çatıb

**İlk türk astronavtı Alper Gezeravcının da olduğu Dragon kosmik gəmisi və Axiom-3 missiya komandası Florida sahillərində okeana endi.**



Fevralın 7-də Beynəlxalq Kosmik Stansiyadan (BKS) ayrılan ekipajı daşıyan Dragon kapsulunun səyahəti, təxminən, 48 saat çəkdi.

Qeyd edək ki, Alper Gezeravcını kosmosa aparan vasitə yanvarın 16-da ABŞ-ın Florida ştatındakı Kennedi Kosmik Mərkəzindən buraxılıb.

Ax-3 Missiyası astronavtları Michael López-Alegria, Walter Villadei, Marcus Wandt və Alper Gezeravcı 20 yanvar şənbə günü yerli vaxtla 07.13-də Beynəlxalq Kosmik Stansiyaya daxil olublar. Gezeravcının səyahətə başladıqdan sonra ilk mesajı "Gələcək səmadadır" olub. O, stansiyada olduğu müddətdə 13 təcrübə həyata keçirib.

Təcrübələr zamanı Türkiyənin kosmos, aviasiya və müdafiə sənayesi üçün yeni araşdırma işləri aparıb. Türkiyə Kosmik Agentliyinin yaydığı məlumata görə, süni intellekt vasitəsilə aparılan təcrübələr xərçəng və immunitet sisteminin zəifləməsinə təsir edəcək xəstəliklərlə bağlı dünya elm ədəbiyyatına töhfə verəcək mühüm tapıntılara səbəb ola bilər..

Alper Gezeravcı X sosial media platformasında kosmosda apardığı bitki təcrübələrini də ətraflı izah edib. Gezeravcı bildirib ki, bu araşdırmalar, dəyişən iqlim hadisələri səbəbi ilə bitkilərin çətin şərtlərə reaksiyasını ölçür. Atdığımız hər addım Yer kürəmizin gələcəyi üçündür.

Qeyd edək ki, komanda gəmidən vertolyotla hava limanına, daha sonra isə təyyarə ilə Hyuston şəhərinə aparılacaq.Təyyarənin həkimləri uçuş zamanı astronavtların ümumi müayinələrini də həyata keçirəcəklər. Astronavtlar Hyustonda hərtərəfli sağlamlıq müayinəsindən keçəcək və bir müddət karantində qalacaqlar.

**Fidan SALMANOVA**
**XQ**

# Daha çox Olimpiya lisenziyası...



**Paris Yay Olimpiya Oyunlarına vəsiqə uğrunda gərgin mübarizə davam edir. "Dördilliy"in ən nüfuzlu yarışına ölkəmizin hələlik 9 idmançısı lisenziya qazanıb ki, onlardan da 2-si yunan-Roma güləşçilərinin payına düşür.**

Qeyd edək ki, yunan-Roma güləşi üzrə ən böyük uğuru 2004-cü ildə Afina Oyunlarında qızıl medal almaqla Fərid Mansurov əldə edib. Sonrakı yarışlarda – "Pekin-2008"-də gümüş, "London-2012"də gümüş və bürünc, Rio Olimpiadasında 2 bürünc medala sahib olmuşuq. Tokio Olimpiadasında 7 medaldan 1-i (bürünc medal) yunan-Roma güləşinə məxsus olub.

Bəs Paris Olimpiadasında bu idman növü üzrə hansı nəticə gözləyirik? Yunan-Roma güləşçilərimizin son dünya çempionatında komanda hesabında birinci olmaqla tarixi uğura imza atmaları, onların hazırlığının mükəmməl olduğunu göstərir. Mundialda Həsrət Cəfərov (67 kq) və Sənan Süleymanov (77 kq) gümüş medalla yanaşı, həm də Olimpiadaya vəsiqə əldə ediblər. Hər iki idmançının dünya çempionatında yüksək nəticəsi olimpiadada onların medal şanslarını artırır.

Yeri gəlmişkən, Sənan Süleymanov 2024-cü ilə də inamla start verib. Xorvatiyada keçirilən reytinq turnirində fəxri kürsünün ən yüksək pilləsinə qalxan pəhləvanımızı daha bir ciddi sınaq gözləyir. Belə ki, dörd il bundan əvvəl Avropa çempionu titulunu qazanmış 27 yaşlı güləşçi fevralın 12-də start götürəcək qitə çempionatında bir daha fəxri kürsünün ən yüksək pilləsinə qalxmağa çalışacaq.

Digər lisenziyanın sahibi Həsrət Cəfərov qitə çempionatında qalib titulunu qorumağa səy göstərəcək. Gənclər arasında dünya çempionu



(U-20, U-23) olan 21 yaşlı pəhləvanın da builki Zaqreb turnirindən medalla qayıtması, onun yaxşı formada olmasından xəbər verir. Ötənilki dünya çempionatında rəqib tanımayan Eldəniz Əzizli (55 kq) və Rafiq Hüseynovun (82 kq) da əsas hədəfləri Paris Olimpiadasına lisenziya qazanmaqdır. Bunun üçün isə onlar Olimpiya çəki dərəcəsi üzrə mübarizə aparmalıdırlar.

Kişilərdən ibarət millinin məşqçisi Həsən Əliyev XQ-yə açıqlamasında bildirdi ki, hər iki idmançı qarşıdakı qitə çempionatının favoritləri sırasındadır. İkiqat dünya çempionu, "Tokio-2020"nin bürünc mükafatçısı R.Hüseynov 4-cü, üçqat dünya çempionu E. Əzizli 3-cü dəfə Avropa çempionluğunu qazana bilərlər.

İdmançılarımıza uğurlar arzulayırıq!

***Leyla QURBANOVA***
***XQ***

# Azərbaycan turizmi Hindistanda



**Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Azərbaycanın turizm imkanları "OTM Mumbai 2024"də sərgilənir. Tədbirin təşkil olunduğu Hindistanın Mumbay şəhərində ziyarətçilərə xalqımızın tarixi və mədəni irsi, ölkəmizin qastroturizm potensialı, qış turizmi və dağxizək mərkəzləri, şərabçılıq, sağlamlıq, ekoturizm kimi turizm istiqamətləri və məhsulları barədə məlumat verilir.**

Milli stenddə "Azərbaycan Hava Yolları" QSC və "Şahdağ" Turizm Mərkəzi ilə yanaşı, 15 yerli turizm sənayesi nümayəndəsinin iştirakı ilə ölkə turizminin təbliği və təşviq ilə bağlı ikitərəfli görüşlər keçirilir, əməkdaşlıq imkanları müzakirə olunur. Asiya üzrə ən böyük turizm sərgisinə 60 ölkədən 1600-dən çox şirkət qatılıb.

Qeyd edək ki, ötən il ərzində Azərbaycana 117 min 302 nəfər Hindistan vətəndaşı gəlib, bu da 2022-ci il rəqəmləri ilə müqayisədə 93 faiz çoxdur. 2024-cü ilin yanvar ayında isə ölkəmizə gələn 10 135 nəfər Hindistan vətəndaşının sayında ötən ilin eyni dövrü ilə müqayisədə 147 faiz artım müşahidə olunub.

***FİDAN***
***XQ***

HAVA

# Bu gün də yağmursuz və dumanlı...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 10-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə duman olacaq. Cənub-qərb küləyi əsəcək, səhər şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 6-11°, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 18-23°, dağlarda gecə 1-6°, gündüz 7-12°, bəzi yerlərdə 16° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

*✓ 2017 –ci ildə V.N .KARAZİN adına Xarkov Milli Universiteti tərəfindən Zahidov Elşən Ağazahid oğlunun adına verilmiş B17 seriyalı,137342 nömrəli diplom, diploma əlavələr və şəhadətnamələr itdiyi üçün etibarsız sayılır.*

*✓ Yeni Azərbaycan Partiyasının Binəqədi Rayon şöbəsi tərəfindən Hamlet Şirəli oğlu Babakişiyevin adına verilmiş 470020 nömrəli üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

# ALLAH RƏHMƏT ELƏSİN

Hidayət Orucov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə və ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynovaya anaları

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi keçmiş iş yoldaşları Flora Sadıqovaya əzizi

**NÜSRƏDDİN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov və professor-müəllim heyəti Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərsu" ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abdulla Yusifov və Rahib Seyidov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru İsrafil Məmmədov və fondun kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3446
SİFARİŞ 288
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00